QARABAĞ AZƏRBAYCANDIR!

## Şuşa kimi Kahramanmaraş, Laçın kimi Hatay, Kəlbəcər kimi Adana...




4

# Azərbaycan və Rusiya prezidentləri arasında telefon danışığı olub



Prezident İlham Əliyev fevralın 14-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib. Telefon söhbəti zamanı iqtisadi-ticari əməkdaşlığın, o cümlədən energetika və nəqliyyat sahələrində birgə layihələrin həyata keçirilməsi perspektivləri geniş müzakirə olunub.

Cənubi Qafqaz regionunda cari vəziyyət barədə də ətraflı fikir mübadiləsi aparılıb. Azərbaycan-Ermənistan sərhədində sabitliyin və təhlükəsizliyin təmin olunması məqsədilə ardıcıl tədbirlərin görülməsinin əhəmiyyəti qeyd edilib. Bu kontekstdə Rusiya, Azərbaycan və Ermənistan arasında yüksək səviyyədə əldə olunmuş müvafiq razılaşmaların qeyd-şərtsiz yerinə yetirilməsinin vacibliyi vurğulanıb. Təmasların müxtəlif formatlarda davam etdiriləcəyi qeyd olunub.

SƏS
№ 028 (6711) 15 fevral 2023-cü il. Qiymәti 60 qәpik

# Müşahidə missiyası, yaxud hədəfdəkilər



8

## Azərbaycan tamaşaçısı və telekanallarımız



6

## Təhsil tariximizdə İrəvan Müəllimlər Seminariyasının rolu



12

## Vardanyan qaçıb - Araik də aradan çıxmağa yol axtarır



14




## Türkiyə səfiri: "Tək millət, tək ürək olduğumuzu sübut etdik"

## Jurnalistlərin iş stajı hansı dövrdən hesablanır?



16

# Azərbaycan dünya birliyi üçün etibarlı və vacib tərəfdaşdır!

## Prezident İlham Əliyev bir sıra dövlətlərin ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib





**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 14-də San-Marino Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Con Matsanın etimadnaməsini qəbul edib. Səfir Con Matsa etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Daha sonra Prezident İlham Əliyev səfirlə söhbət edib. Dövlətimizin başçısı bildirib ki, ölkələrimiz arasında siyasi, iqtisadi, turizm sahələrində əlaqələrin genişləndirilməsi üçün imkanlar mövcuddur və bu xüsusda təmaslar daha da fəallaşdırılıb. Prezident İlham Əliyev San-Marino rəhbərlərinin 2015-ci ildə Azərbaycana səfərini məmnunluqla xatırladıb, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafına müsbət təsir göstərəcəyinə ümidvarlığını ifadə edib.**

Səfir Con Matsa ölkələrimiz arasında əlaqələrin inkişafı üçün böyük imkanların olduğunu vurğulayıb, San-Marinonun Azərbaycanla münasibətləri dərinləşdirməkdə, siyasi, həmçinin mədəniyyət və turizm sahələrində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu deyib. Səfir bundan sonra mütəmadi əsasda Azərbaycana səfər edəcəyini, aidiyyəti dövlət orqanları ilə görüşlər keçirəcəyini və əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib. San-Marinonun İtaliya ilə də çox sıx əlaqəsinin olduğunu vurğulayan diplomat bu çərçivədə də ölkələrimiz arasında xüsusilə təhsil və turizm sahələrində əməkdaşlıq üçün imkanların mövcudluğunu diqqətə çatdırıb.

Dövlətimizin başçısı öz növbəsində bildirdi ki, ölkəmizin həm İtaliya, həm də Vatikan ilə çox yaxşı münasibətləri var. İtaliya-Azərbaycan əlaqələri strateji tərəfdaşlıq müstəvisində inkişaf edir. Prezident İlham Əliyev, həmçinin özünün Vatikana və Roma papalarının Azərbaycana səfərlərini məmnunluqla xatırladı. Bu əsnada ölkələrimiz arasında yaxşı əməkdaşlıq imkanlarının olduğunu qeyd edib.



Prezident İlham Əliyev fevralın 14-də Qana Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Oheneba Lesli Akua Akyaa Opoku-Varenin etimadnaməsini qəbul edib. Öncə səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib, sonra dövlətimizin başçısı səfirlə söhbət edib.

Prezident İlham Əliyev 2019-cu ildə Qoşulmama Hərəkatının Bakıda keçirilən 18-ci Zirvə Görüşündə iştirak etmək üçün Qana Prezidenti Nana Akufo-Addonun Azərbaycana səfərini məmnunluqla xatırlayıb. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinə Qananın verdiyi dəstəyin və göstərdiyi etimadın ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb, Azərbaycanın təşkilatın sədri kimi peyvənd millətçiliyinə qarşı apardığı fəaliyyəti vurğuladı və bu sahədə yaxşı nailiyyətlərin əldə olunduğunu deyib.

Səfir də öz növbəsində Qana Prezidentinin 2019-cu ildə Azərbaycana səfərini məmnunluqla xatırladı, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığını qeyd edib. Diplomat Azərbaycana Qoşulmama Hərəkatının sədri kimi fəaliyyətində uğurlar arzulayıb. Azərbaycanda yaradılmış infrastrukturdan və əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərdən məmnunluğunu bildirən səfir ölkəmizin davamlı inkişaf sahəsində təcrübəsinin maraqlı olduğunu qeyd edib.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına üzv ölkələrə ayırdığı təhsil qrantı çərçivəsində Qanadan olan 10-a yaxın tələbənin ölkəmizin müxtəlif təhsil müəssisələrində ali təhsil aldığını bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev dünən həmçinin Anqola Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Auqusto da Silva Kunhanın da etimadnaməsini qəbul edib. Öncə səfir Auqusto da Silva Kunha etimadnaməsini dövlətimizin başçısına təqdim edib, daha sonra Prezident İlham Əliyev səfirlə söhbət edib.

Dövlətimizin başçısı vurğulayıb ki, Anqola ilə Azərbaycan arasında siyasi əlaqələr yaxşı səviyyədədir, iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığımızın inkişaf etdirilməsi üçün böyük imkanlar mövcuddur. Energetika sahəsini xüsusi qeyd edən Prezident İlham Əliyev ölkələrimizin bu sahədə də əməkdaşlıq imkanlarının geniş olduğunu diqqətə çatdırıb.

Azərbaycan Prezidenti ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində Anqolanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirib. Dövlətimizin başçısı BMT Təhlükəsizlik Şurasında aparılan islahatlar çərçivəsində Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik edən ölkənin rotasiya qaydasında BMT Təhlükəsizlik Şurasının daimi üzvü olması təşəbbüsü ilə çıxış etdiyini vurğulayıb, Hərəkata üzv dövlətlər arasında bununla bağlı məsləhətləşmələrin aparılmasının vacibliyini qeyd edib. Görüşdə, həmçinin elm, təhsil, kənd təsərrüfatı, mədən sənayesi, energetika sahələrində və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# "Rusiya ilə Azərbaycan arasında ikitərəfli əlaqələr bütün sahələrdə uğurla inkişaf edir"

## Prezident İlham Əliyev Rusiya XİN-in Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib. Dövlətimizin başçısı, ilk növbədə, Rusiya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrə toxunaraq, əməkdaşlığımızın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğulayıb. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev, həmçinin iki ölkənin qanunverici orqanları səviyyəsində qarşılıqlı səfərlərin və əməkdaşlığın əhəmiyyətinə toxunub. Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparılıb.

İqor Xovayev regiona səfəri və Rusiyanın Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesinə dəstək vermək üçün atdığı addımlar barədə məlumat verib.



# Azərbaycan-İtaliya münasibətlərinin inkişafında yeni mərhələ

## PREZİDENT İLHAM ƏLİYEV: "İtaliya-Azərbaycan əlaqələri təkcə iki ölkənin maraqlarını təmin etmir, böyük coğrafiyanın maraqlarını təmin edir"




Azərbaycan İtaliya əlaqələri tarixi köklərə, strateji tərəfdaşlığa və dostluğa söykənir. Zəngin mədəniyyətə, böyük dövlətçilik ənənələrinə, güclü iqtisadiyyata, dünya siyasətində özünəməxsus yerə malik olan İtaliya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin tarixi ölkəmizin müstəqilliyinin bərpasının ilk illərinə təsadüf edir. Belə ki, 1992-ci ilin əvvəllərində İtaliya Azərbaycanın müstəqilliyini tanımış, həmin il ölkələrimiz arasında diplomatik əlaqələr qurulmuşdur. İtaliya hökumətinin Cənubi Qafqaz ölkələri arasında ilk olaraq Azərbaycanda öz səfirliyini təsis etməsi ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasının bariz nümunəsidir. 1997-ci ildə Azərbaycanda İtaliyanın səfirliyi yaradılmış, həmin ilin sentyabr ayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İtaliyaya rəsmi səfər etmişdir. Dəfələrlə ölkələrimizin nümayəndə heyətləri, hökumət rəhbərləri ardıcıl və davamlı görüşlər keçirmiş və eyni zamanda yüksələn xətlə inkişaf edən sazişlər, mühüm qərarlar qəbul edilmişdir. Ümumilikdə, ölkələrimiz arasında siyasi və iqtisadi cəhətdən də maraqlarımızın üst-üstə düşdüyü məqamlar çoxdur. İtaliyanın iş adamları, şirkətləri Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşunu həyata keçirir, Xəzərin karbohidrogen ehtiyatlarının istismarında yaxından iştirak edirlər. Ölkəmizin xarici siyasətinin başlıca prioritetlərindən olan Avropa və Avratlantik qurumlara inteqrasiya, o cümlədən Avropa İttifaqı ilə əlaqələrin gücləndirilməsi, eləcə də Azərbaycanın Ümumdünya Ticarət Təşkilatlarına üzv olması prosesində İtaliya ölkəmizə dəstəyini heç zaman əsirgəməmişdir. Xüsusilə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun şəkildə həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyinin İtaliya tərəfindən dəstəklənməsi prosesə öz müsbət təsirini göstərmişdir. Eyni zamanda, dost ölkə olaraq İtaliya bizim azad edilmiş ərazilərdə fəaliyyət göstərmək üçün dəvət etdiyimiz ilk ölkələrdən biridir.

### BİZ STRATEJİ MƏNA DAŞIYAN İTALİYA-AZƏRBAYCAN ƏLAQƏLƏRİNİ DAHA DA GENİŞLƏNDİRMƏYƏ ÇALIŞIRIQ

Prezident İlham Əliyev Mingəçevir şəhərində İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edən İtaliya Respublikasının şirkətlər və ”Made in Italy” naziri Adolfo Ursonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə bildirib ki, bu, doğrudan da çox önəmli tədbirdir və İtaliya-Azərbaycan dostluğunu böyük dərəcədə gücləndirəcək bir layihədir. İtaliya-Azərbaycan əlaqələri strateji məna daşıyır və biz çalışırıq ki, bu strateji tərəfdaşlıq çərçivələrini daha da genişləndirək: ”İlk növbədə, siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Siz də öz çıxışınızda qeyd etdiniz ki, Prezident Mattarellanın Azərbaycana səfəri, mənim İtaliyaya səfərlərim bu əlaqələri daha da gücləndirir. Əlbəttə ki, yanvarın 11-dən bu günə qədər İtaliya hökumətinin üç nazirinin Azərbaycana gəlməsi çox önəmli və deyə bilərəm ki, fövqəladə bir hadisədir. Bu səfərlər zamanı biz həm hərbi, hərbi-texniki, energetika və bütövlükdə investisiya, ticarət sahələrində əməkdaşlığı müzakirə etmişik və edəcəyik”.

### VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ İTALİYANIN AZƏRBAYCANLA HƏMRƏYLİYİ

Bəli, Azərbaycan-İtaliya hər zaman dost olduğunun əməlləri ilə göstərib. Belə ki, 44 günlük Vətən müharibəsi bir daha kimin dost, kimin düşmən olduğunun göstərdi. Prezident İlham Əliyev hər zaman çıxışlarında işğaldan azad olunmuş ərazilərimizin bərpasında Azərbaycanın dost ölkələri təmsil edən şirkətlərlə əməkdaşlıq edəcəyini bəyan edib. İtaliya da Azərbaycana dost ölkələrdəndir və strateji tərəfdaşımızdır. Ölkələrimiz arasında bütün istiqamətlər üzrə səmərəli əməkdaşlıq əlaqələri mövcuddur. Təsadüfi deyil ki, 2020-ci il İtaliyada ”Azərbaycan ili” kimi qeyd olundu. Bu bir daha onu göstərir ki, Azərbaycan İtaliya əlaqələri tarixi köklərə, strateji tərəfdaşlığa və dostluğa söykənir.

Azərbaycan və İtaliya arasında dostluq münasibətləri 44 günlük Vətən müharibəsi dövründə də rəsmi Roma tərəfindən açıq şəkildə bəyan olundu. İtaliyanın ayrı-ayrı rəsmi orqanlarında müxtəlif səviyyələrdə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörməti əks etdirən sənədlər qəbul olundu. Həmin sənədlərdə də vurğulanırdı ki, İtaliya bölgədə sülh və hörmətin bərqərar olması üçün tərəflərin BMT-nin müvafiq qətnamələrinə və 10 noyabr tarixində imzalanmış Bəyanatdan irəli gələn öhdəliklərə əməl etməsinin vacibliyi vurğulanırdı. Hətta İtaliyanın müxtəlif rəsmi orqanları Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörməti əks etdirən sənədlər qəbul etdi.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev İtaliyanın ”Maire Tecnimont Group” şirkətinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən işğaldan azad edilmiş ərazilərin bərpasına dost ölkələrin yaxından cəlb edilməsi və onlara geniş imkanlar yaradılmasını iki ölkə arasında dost münasibətlərinin bariz nümunəsi olduğunu önə çəkdi. 44 günlük müharibə zamanı İtaliya informasiya cəbhəsində, ölkəmizin haqq səsinin bütün dünyaya çatdırılması prosesində də Azərbaycana əvəzsiz dostluq nümayiş etdirdi. Belə ki, İtaliyanın nüfuzlu ”Politicamente Corretto”, ”Adnkronos” xəbər agentliyi, ”Il Giornale” qəzeti, ”Notizie Tiscali”, ”Notizie Yahoo”, ”Occhio Notizie”, ”Telenicosia”, ”Agenzia Nova” və digər media resursları Azərbaycan üçün əhəmiyyətli platformaya çevrildi. İtaliya mətbu orqanlarında Ermənistanın Gəncə şəhərinə raket hücumu və Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi müharibə cinayətləri ilə bağlı materiallar dərc edildi, mülki əhaliyə qarşı həyata keçirilən terror siyasəti qətiyyətlə pislənildi və bütün bunlar ən qabarıq şəkildə dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Azərbaycanın Avropa İttifaqı və NATO ilə münasibətlərinin yeni mərhələyə qədəm qoymasında körpü rolunu oynayan əsas dost dövlətlərdən biri də məhz İtaliyadır. Ümumiyyətlə, qlobal proseslərə, sabitliyin bərpası, sülhün təmin edilməsi, terrorizmə, işğala və ölkələrin sağlam inkişaf prinsiplərinə vahid baxış Azərbaycanla İtaliyanı birləşdirən əsas amillərdəndir.

Ölkəmizin işğaldan azad olunmuş ərazilərinin bərpası və inkişafı sahəsində ”ICE” - İtaliya Ticarət Agentliyinin, ”OICE” - İtaliyanın memarlıq, mühəndislik və texnikiitisadi konsaltinq şirkətləri assosiasiyasının, ”Assorestauro” - İtaliyanın memarlıq, incəsənət, restavrasiya və şəhər bərpası üzrə assosiasiyasının, ”Confindustria” -İtaliyanın sənaye və xidmət şirkətləri assosiasiyasının, ”SACE” - İtaliya İxrac-Kredit Agentliyinin, ”ANCE” - İtaliyanın Milli İnşaatçılar Assosiasiyasının və ”Elettricita Futura” - İtaliyanın elektrik enerjisi şirkətləri assosiasiyası ilə əməkdaşlıq imkanları ən yüksək səviyyədə müzakirə edilərək İtaliya şirkətlərinin işğaldan azad edilən ərazilərin bərpası proesində iştirakı ilə bağlı qərarlar qəbul olunub. İtaliyanın Azərbaycandakı səfiri Klaudio Tafurri Ağdama səfəri zamanı bu şəhərin tamamilə məhv edildiyini və İtaliya şirkətlərinin bərpa-inkişaf işlərində iştirakına hazır olduqlarına bildirmişdi.

İtaliyanın ”Geopolitica.info” portalında italyan tədqiqatçı Chiara Minoranın müəllifi olduğu ”Atəşkəsdən 300 gün sonra: Qarabağın bərpası və İtaliyanın rolu” sərlövhəli məqalədə İtaliya da daxil olmaqla, bir sıra ölkələrin şirkətlərinin iştirakı ilə çoxsaylı bərpa və yenidənqurma layihələri həyata keçirildiyi, bunun azad olunmuş ərazilərdə davamlı iqtisadi inkişafı təmin etmək, eyni zamanda, münaqişə dövründə ölkənin qalan hissəsinə sığınan yüz minlərlə azərbaycanlı qaçqın və məcburi köçkünün öz ərazilərinə qayıtmasını təmin etmək məqsədi daşıdığı qeyd olunurdu.

Prezident İlham Əliyev 2021-ci il fevral ayının 3-də İtaliyanın ”Maire Tecnimont Group”un sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən İtaliyanın Azərbaycan üçün əhəmiyyətini xüsusi olaraq vurğulamışdı: ”İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etdiyini qeyd etmək istəyirəm. Bir il bundan əvvəl mənim ölkənizə dövlət səfərim bunu bir daha göstərdi və mən bizim rəhbər şəxslərlə, biznes icması ilə görüşlərimizi və müzakirələrimizi xatırlayıram. Biz həmişə sözümüzü tuturuq və razılaşdırdıqlarımızın hamısını icra edirik. Həmçinin keçən il tariximizdə yaşanan çətin vaxtlarda biz italyan xalqının bizimlə həmrəy olduğunun şahidi olduq. Biz İtaliya mediasının bu məsələyə obyektiv yanaşmasının şahidi olduq və onu da gördük ki, imzaladığımız və vurğuladığımız məsələləri reallığa çevirdik. Çünki İtaliya və Azərbaycan strateji tərəfdaşlardır. Strateji tərəfdaşlıq haqqında sənəd imzalanıb və reallıq da bizim strateji tərəfdaş olduğumuzu göstərir”. Azərbaycan, həmçinin İtaliya ilə bu gün kifayət qədər aktuallıq kəsb edən ”yaşıl kimya”, ”yaşıl enerji”, ”yaşıl enerji zonası”, ”ağıllı şəhər”, ”ağıllı kənd” konsepsiyaları əsasında sıx əməkdaşlıqda maraqlıdır. Eyni zamanda, İtaliya-Azərbaycan münasibətləri humanitar sahə üzrə də inkişaf etməkdədir.

### 2020-Cİ İLİN ”AZƏRBAYCAN İLİ” ELAN EDİLMƏSİ İTALİYA VƏ AZƏRBAYCANIN STRATEJİ TƏRƏFDAŞ OLDUĞUNUN TƏSDİQİDİR

2020-ci ilin İtaliyada ”Azərbaycan ili” elan olunması, Vətən müharibəsi dövründə İtaliyanın Azərbaycanla həmrəyliyini göstərən faktlar və İtaliya mediasının məsələyə obyektiv yanaşması iki ölkə arasındakı münasibətlərin yüksək səviyyədə olmasından xəbər verir. Qeyd edək ki, 2020-ci ildə İtaliyada ”Azərbaycan ili” elan olunmmasını İtaliya Respublikasının Prezidenti Sercio Mattarella geniş tərkibdə görüşdən sonra Prezident İlham Əliyevlə mətbuata bəyanatlarla çıxış edərkən deyib. İtaliya Prezidentinin sözlərinə görə, ölkəsi Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrə hər zaman dəstək olmağa hazırdır: ”Mən artıq cənab Prezidentə bu barədə bildirdim ki, 2020-ci il İtaliyada ”Azərbaycan ili” elan olunub. Bu, bizim əlaqələrimizi, dostluğumuzu, əməkdaşlığımızı artırmağa kömək edəcək və iki ölkə arasında münasibətləri daha da intensivləşdirəcək”.

S.Mattarella onu da bildirib ki, İtaliya Avropa İttifaqı və Azərbaycan arasındakı əlaqələrə stimul olmaq üçün bu sahədə də çox geniş formada əməkdaşlıq etməyə hazırdır: ”İtaliya Azərbaycanı, həmçinin, Avroatlantik Tərəfdaşlıq üzrə də ən əsas tərəfdaş kimi görür. Əfqanıstanda terrorizmə qarşı mübarizədə və gördüyünüz kimi, hər bir sahədə bizim ölkələrimiz arasında əməkdaşlıq çox yüksək səviyyədədir. Azərbaycan hər zaman bu əməkdaşlıqda İtaliyanın dostluğuna və dəstəyinə əmin ola bilər”.

Prezident İlham Əliyev ötən il fevral ayının 3-də İtaliyanın ”Maire Tecnimont Group”un sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən İtaliyanın Azərbaycan üçün əhəmiyyətini xüsusi olaraq vurğulamışdı: ”İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etdiyini qeyd etmək istəyirəm. Bir il bundan əvvəl mənim ölkənizə dövlət səfərim bunu bir daha göstərdi və mən bizim rəhbər şəxslərlə, biznes icması ilə görüşlərimizi və müzakirələrimizi xatırlayıram. Biz həmişə sözümüzü tuturuq və razılaşdırdıqlarımızın hamısını icra edirik. Həmçinin keçən il tariximizdə yaşanan çətin vaxtlarda biz italyan xalqının bizimlə həmrəy olduğunun şahidi olduq. Biz İtaliya mediasının bu məsələyə obyektiv yanaşmasının şahidi olduq və onu da gördük ki, imzaladığımız və vurğuladığımız məsələləri reallığa çevirdik. Çünki İtaliya və Azərbaycan strateji tərəfdaşlardır. Strateji tərəfdaşlıq haqqında sənəd imzalanıb və reallıq da bizim strateji tərəfdaş olduğumuzu göstərir”. Bir sözlə, bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyev cənablarının apardığı çoxşaxəli siyasətin və beynəlxalq aləmdə şəxsinə olan inamın, hörmətin nəticəsidir.

***RƏFİQƏ HÜSEYNOVA***

# Şuşa kimi Kahramanmaraş, Laçın kimi Hatay, Kəlbəcər kimi Adana...

**Fəlakətli zəlzələ nəticəsində darmadağın olan Türkiyənin Kahramanmaraş, Hatay, Adıyaman, Qaziantep, Osmaniye, Adana, Şanlıurfa, Malatya, Diyarbəkir, Kilis, Elazığ şəhərləri görünüşcə Azərbaycanın Qarabağının Şuşası, Laçını, Kəlbəcəri, Füzulisi, Zəngilanı, Qubadlısı, Ağdamı görüntüsündədir. Necə ki, işğaldan azad olunmuş ərazilərimizə düşmənin vurduğu dəhşətli yaralara baxarkən ürəyimiz sızlayır, günlərdir, televiziya vasitəsilə izlədiyimiz altı üstünə çevrilən bu şəhərlərin görüntüləri də eynilə ürəklərimizi sızladır, bu dəhşət qarşısında sözün bitdiyi ana düşürük.**

## Fərqli hadisələr, oxşar talelər...

Bəli, torpaqlarımız 30 il idi ki, qonşuluqdan kənar olan qonşularımız tərəfindən zorla işğal olunmuşdu. Torpaqlarımızın işğalında təbii ki, ozamankı ölkə rəhbərliyinin də böyük rolu olmuşdu. Çünki işğaldan az sonra torpaqların onlar tərəfindən satıldığı əsaslı olmuşdur.

Soydaşlarımız ölkəmizin hər tərəfinə üz tutmuş, illərlə olmazın əzab-əziyyəti ilə üzləşmiş, torpaq həsrəti ilə dünyasını dəyişənlər qəlbində dağ boyda dərdlə başqa yurdda torpağa tapşırılmışlar. Minlərlə yurd sevdalı, torpaq həsrətli insanlarımız bir daha Qarabağı görə bilmədilər. Onlar bu dünyadan o dünyaya ürəkləri hicranlı, dərdli-düyünlü, nisgilli köçdülər. Yurd həsrəti qəlblərində, torpaq ətri burunlarinda o dünyaya yolçu oldular.

## Məhv olan şəhərlər, məhv olan insanlar, yaşayan ruhlar...

Bəli, məhv olan şəhərlər... Həm Azərbaycanda, həm də Türkiyədə bir-birinə nə qədər oxşardır, İlahi. Azərbaycanda yerüstü zəlzələ adlandıraq bu uçurulanları, dağıntıları, göylərə qaldırıldı, ya da dağıntıların altında parça-parça oldular. Ahları ərşə qalxdı. Lakin kim idi onların səsini eşidən? Tamah qulaqları kar etməyibmi, tamah gözləri kor etməyibmi? İlahi, hara gedir dünyamız. Hansı mənzilbaşına doğru yolçuluğa çıxıb dünyamız? Bu günahlarla haqqın dərgahında necə cavab verəcək dünyamız?..

Ailələr məhv oldu, həm Azərbaycanda, həm Türkiyədə. Bir nümayəndəsi belə qalmadı, davamçı olmadı. Məhv edildilər, məhv










şəkildə sübut olundu. Bu utanmaz satışa səbəb isə sovet imperiyası rejiminin başında duranlarının ölkəmizə rəhbərlik edənləri yüksək vəzifələrə əyləşdirməyə verdikləri söz idi. Bu sözlə başları aldadılanlara torpaqları bədnam qonşulara satmaları təklif olunmuşdu. Və beləliklə də tarixi, əzəli ata-baba yurdlarımız orada yaşayan insanların əlindın zorla alınmış, minlərlə soydaşımız evindən-eşiyindən didərgin salınmışdı.

Torpaqların bu qayda ilə ermənilərə verilməsinə qarşı çıxan qəhrəman xalqımız isə 1990-cı illərdə Vətən müharibəsinə qalxmış, əliyalın, ordusuz, silah-sırsatsız, texnikasız olsalar da, rəhbərlikdən kömək istəmələrinə baxmayaraq onlara heç bir yardım göstərilməsə də, beş ilə yaxın zaman kəsiyində ermənilərlə mübarizə aparmış, minlərlə şəhidimiz, qazimiz olsa da, torpaqlarımızı itirməli

Bu gün Türkiyədə dəhşətli zəlzələ nəticəsində faciə ilə üz-üzə qalmış, qışın bu şaxtalı günlərində ev-eşiklərini, isti yuvalarını itirmiş insanların bizim soydaşlarımızla fərqli hadisələr, lakin oxşar talelər yaşadıqlarını seyr etdikcə insanın damarlarında qan qonur. İki dövlətdə yaşayan bir millətin başına gələn bu müdhiş hadisələr nə üçün baş verməli idi? Nə üçün günahsız insanlar bu qədər dəhşətlə, müsibətlə üzləşməli idilər?..

Dağıntılar içərisində olan Kahramanmaraş, Hatay, Adıyaman, Qaziantep, Osmaniye, Adana, Şanlıurfa, Malatya, Diyarbəkir, Kilis, Elazığda Qarabağımızın altı üstünə çevrilmiş torpaqlarını xatırlayırıq. Bu şəhərlərin minlərlə sakininin acı taleyi ermənilərin silah gücü ilə evlərindən qovduğu, etiraz edəndə yerindəcə güllələdiyi soydaşlarımızın taleyinə necə də bənzəyir...

Türkiyədə isə yeraltı təbii zəlzələlərin nəticəsidirmi, nədir, bunu araşdırmaq alimlərin, mütəxəssislərin işidir. Nəticə etibarı ilə hər iki ölkənin fərqli hadisələri, oxşar taleləridir.

Məhv olan şəhərlər, məhv olan insanlar və yaşayan ruhlar... Bəli məhv oldu, məhv edildi şəhərlər, uçuruldu, dağıdıldı, daşınıb aparıldı. Məhv oldu şəhərlər, uçdu, dağıldı, altı üstünə çevrildi. Görünüşcə nə qədər bənzərdir bu şəhərlər. Bu şəhərlərin insanlarının taleyi nə qədər oxşardır. Ağılları, şirin söz-söhbətləri, nəsihətləri dilində qalan ağsaqqal, ağbirçəklər, arzusu ürəyində torpağa gömülən və ya torpağın altında qalan gənclər... Hələ bu dünyanın dəhşətlərini anlamayan, bir qarış torpaq üçün fəlakətlər, müharibələr törədən, hökmranlıq etmək üçün şəhərləri və insanları hədəf götürənlərdən xəbərsiz günahsız uşaqlar ya süngünün ucunda oldular. Onların əlimizdə qalan tək rəsmləridir. Şuşanın, Laçının, Kəlbəcərin, Ağdamın, Füzulinin, Zəngilanın, Qubadlının, Xocalının və Kahramanmaraş, Hatay, Adıyaman, Qaziantep, Osmaniye, Adana, Şanlıurfa, Malatya, Diyarbəkir, Kilis, Elazığın yüzlərlə belə ailələri var. Yer üzündən silinən ailələr...

Bəs ömrünə bu fəlakətlərdən sağ-salamat qurtarmaq yazılanların taleyi?.. Onların taleyinə tale demək mümkündürmü məgər? Onlar insandırmı, yoxsa yaşayan ruhlardırmı? Görəsən zamanın neçə ili bu insanların acısına məlhəm ola biləcək? Görəsən qarşıdakı illərin hansı biri onların dəhşət və vəhşət dolu xatirələrini əlindən alıb apara biləcək? Onlara yaşadıqlarının bircə anını belə unutduran saat, dəqiqə ola biləcəkmi? Əsla... Ola da bilməz.

*Ardı Səh. 5*





# Şuşa kimi Kahramanmaraş, Laçın kimi Hatay, Kəlbəcər kimi Adana...



Əvvəli Səh.4

Qarabağın o gözəl şəhərlərinin sakinləri gözlərinin qarşısında öldürülən, süngüyə taxılan, qolu-ayağı kəsilən, dərisi soyulan insanları unuda bilərmi? Şuşanın, Laçının, Kəlbəcərin, Ağdamın, Füzulinin, Zəngilanın, Qubadlının, Xocalının taleyinə ölmək yox, yaşamaq yazılan insanlarının hansı biri gözləri qarşısında diri-diri yandırılan valideynini, baba-nənəsini, övladını unuda bilər? Onların hansı biri gözləri önündə evlərinə od vurulub yandırılmasını, gözləri önündə bir ömürlük başa gətirilə bilinməyən evinin-ocağının dağıdılmasını unuda bilər? O insanlarin hansi biri ayaqyalın, çılpaq yollara düşən, arxasında düşmən, önündə şaxta, soyuq, yağış, palçıq olan, çarəsizlikdən sürünən, yoldaca donub ölən soydaşlarımızı xatirəsindən silə bilər?.. Kim ata-anasının 30 ilin hər anı torpaq həsrəti axan göz yaşlarını unuda bilər? Qarabağ, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Zəngilan, Qubadlı deyə-deyə bu dünyadan vidalaşması kimin gözləri önündən silinə bilər? Bir atanı, bir ananı, bir yaşlı nənəni, babanı özü boyda hicranla yad ellərdə torpağa gömən kimsə bunları unuda bilər?

Eləcə də Kahramanmaraş, Hatay, Adıyaman, Qaziantep, Osmaniye, Adana, Şanlıurfa, Malatya, Diyarbəkir, Kilis, Elazığda taleyinə ölmək deyil, yaşamaq yazılanlar gözləri önündə olanları unuda bilərlərmi? Ailəsinin-ata-anasının, bacı-qardaşının gözünün önündəki dağıntıların altında can verdiyini bir ömür unuda bilərlərmi? Ailədən tək özü qalan kiçik bir uşaq bu yaşın ehtiyacları fonunda olanları unuda bilərmi? Dağıntılar içərisində yıxıla-dura o yana-bu yana qaça-qaça əzizlərini axtaran günahkar cocuq bunun acısını içindən çıxarıb ata bilərmi? Yaşlı bir nənə dağıntılar altındakı oğlu, gəlini və nəvələrinin bu dünyadan artıq qopduqları ilə barışa bilərmi? Övladının, həyat yoldaşının yerin neçənci qatının qurbanı olduğunu bilməyən qadın necə, yaşayırmı bu dünyada? Əlbəttə yox, Yaşamır onlar. Tarixin, zamanın, insanların, düşmənlərin, tamahkarların, eqoistlərin vurduğu zərbələrlə dağılan dağılmış, ölən ölmüş, yaşayanlar isə yaşayan, canlı ruhlardır. Onların bağrına çəkilən dağ bir ölümdən belə dəhşətli, faciəvidir.

Kimdir günahkar? Bu gizli deyil. Bilənlər bilir, bilməyənlər də bilsin. Bilsinlər ki, bütün cahan üçün düşmən olanlarla mübarizə aparsınlar. Çünki bu faciələri, bənzəri olmayan vəhşilikləri bu gün bizlər yaşayırıqsa, sabah digərlərinin da yaşaması mütləqdir. Ona görə mütləqdir ki, dünyanın nizamı pozulub. Dünya kimlərinsə əlində oyuncağa çevrilib. Qızışdıranlar, havadarlar, gözügötürməyənlər, tamahkarlar, haqsız-ədalətsizlər dünyasıdır bu dünya... Və onlar yerində oturdulur, oturdulacaq da. Dünya belə qalmayacaq!

## Türk torpaqları da Azərbaycan torpaqları kimi...

Qarabağ iki ildir ki, işğaldan azad olunub. İki ildir ki, torpaqlarımızda bərpa işlərinə başlanılıb. Artıq Şuşa öz əvvəlki gözəlliyinə, cazibəsinə qovuşmaqdadır. Həmçinin də Laçın, Kəlbəcər, Ağdam, Zəngilan, Qubadlı, Füzulidə görülən işlər yaxın gələcəkdə bu yerlərin tamamilə əvvəlki görkəminə qayıda biləcəyindən xəbər verir. 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər bizi torpaqlarımıza qovuşdurdu. Onların düşmən tərəfindən hansı vəziyyətə salındığını gördük, könlümüz parçalansa da, lakin torpaq torpaqlığında qalır. Torpaq varsa, onun üzərində istənilən gözəlliyi yaratmaq olar. Kim istəyərdi yurdunun dağılmasını? Kim istəyərdi ocağının sönməsini? Kim istəyərdi həyatinə gedən yolların ot basmasını, cığırın itməsini, bağ-baxçasının 30 ilin kimsəsizliyi ilə məhv olmasını? Heç kim bunu əsla ürəyinə belə gətirməzdi. Lakin həyat insanlara özünün bütün üzlərini göstərir. Bizə də göstərdi. Göstərdi ki, insan yurdsuz-yuvasız ala bilərmiş, torpaqsız qala bilərmiş. İnsan sonsuz acılarla üz-üzə qala bilərmiş.

Şükürlər olsun ki, torpağımızı geri ala bildik. Minlərlə oğul bu yolda şəhidlik zirvəsinə ucaldı, qazi oldu, analarımız qarayaylıq qaldı, atalarımızın qəddi büküldü, qız-gəlinlərimizin üzünə vaxtsız qırışlar "qonaq" gəldi, övladlarımızın sinəsinə vaxtsız ata yanğısı çökdü, lakin biz öz əzəli yurdlarımızı düşməndən aldıq. Deməli, orada abadlıq da aparacaq, o yerləri bərpa da edəcəyik.

Türkiyədə zəlzələ qurbanı olan şəhərlər də Qarabağın misalı, yerlə-yeksan olsa da, bu yerin insanları olmazın məşəqqətləri ilə üzləşsələr də, lakin torpaq öz yerindədir. O torpaq üzərində türk qardaş-bacılarımız yenə də şəhərləri bərpa edəcək, bağ-bağat salacaq, parklar-xiyabanlar tikəcəklər. Məktəblər, xəstəxanalar, həyat üçün lazım olan bütün obyektlər zamanla yenidən ucaldılacaq bu şəhərlərdə.

Necə ki, ölkəmizin başçısı 20 il torpaqlarımızın azadlığı üçün bütün tədbirləri həyata keçirdi, torpaqlarımızın azad olmasina, ərazi bütövlüyümüzün bərpasına nail oldu, hazırda Qarabağda geniş quruculuq işlərini həyata keçirir, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da xalqını, millətini sevən bir şəxsiyyət kimi, bütün bu çətinliklərin öhdəsindən gələcək. Yaxın gələcəkdə bütün şəhərlər yenidən bərpa olunacaq.

Xalq və millətimiz kimi, bu prezidentlərin də oxşar tərəfləri var. Bu oxşarlıq onlarin Vətənə sevgisində, millətə, xalqa məhəbbətində, prinsipiallığında, başladığı işi uğurla sona çatdırmasında, bir də hər iki millət tərəfindən sevilməsindədir. Zəlzələdən zərər çəkənlərin acılarını onlarla birgə yaşayan bizlərin də köməkliyi ilə Türkiyə bu ağır günləri qısa zamanda arxada qoyacaq. Baxmayaraq ki, 30 mindən artıq itkisi var, 80 mindən artıq yaralısı var, darmadağın olan min kilometrlərlə ərazisi var. Bizim də eynilə, birinci və ikinci Vətən müharibəsində 30 minə yaxın şəhidimiz, bundan qat-qat çox qazimiz və viran edilən minlərlə kilometr ərazimiz var. Bu, oxşar talelərdir. Ötən 30 ilin fərqli hadisələrinin oxşar taleləri...

Hər zaman-həm kədərli, həm də sevincli günlərdə bir-birinin yanında olan bu iki dövləti oxşar talelər bir-birinə daha sıx bağlayır. Elə bu bağlılıqdan yaranan birlik, həmrəylik də hər iki xalqın xoşbəxt gələcəyindən xəbər verir. Acı, çətin, kədərli günlərimiz olsa da, xoş, işıqlı sabahlar həmişə bizimlə olacaq. Çünki türk oğlu türkük və türkün gücü bitməz, tükənməzdir.

***Mətanət Məmmədova***

# Azərbaycan tamaşaçısı və telekanallarımız



**67 yaşlı Azərbaycan televiziyası radiodan 30 il sonra - 1956-cı il fevralın 14-də fəaliyyətə başlayıb. Paytaxt Bakıda televiziya mərkəzi üçün binanın inşası 1954-cü ildə start götürdü. Tikinti üçün Bakının ən hündür məkanlarından biri olan Mehdi Hüseyn küçəsi 1 ünvanı seçildi.**

İlk veriliş günü ekranda çıxışını "Göstərir Bakı!" kəlməsi ilə açan gənc aktrisa Nəcibə Məlikova tamaşaçıları televiziyanın fəaliyyətə başlaması münasibətilə təbrik etdi. Həmin gün ekranda "Bəxtiyar" bədii filmi nümayiş etdirildi. 1957-ci ildən Azərbaycan televiziyası efirə həftədə 5, 1962-ci ildən isə gündəlik 7, 70-ci illərdən isə 10, 80-ci illərdən 18, 2005-ci ildən isə 24 saatlıq fasiləsiz yayıma keçdi. Elə həmin ildən Azərbaycan Dövlət Televiziyası Azərbaycan Prezidentinin sərəncamı ilə Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinə çevrildi.

30-40 il əvvələ qədər evdə əyləncə dedikdə ağlımıza ancaq televizorlar gəlirdi. O günlərdən sonra isə yaşamımıza əvvəlcə kompüterlər, sonra isə smartfonlar və planşetlər daxil olub. Bu cihazlar televizor qarşısında keçirdiyimiz vaxtı azaltsa da, ev həyatında televizorların yeri həmişə birinci yerdə olub.

Texnologiyanın inkişafı ilə televizorlar yalnız televiziya yayımlarına baxmaq üçün istifadə etdiyimiz cihazlar olmaqdan çıxdı. Bu gün məzmun resursları çox zəngin olsa da, ənənəvi televiziyalar hələ də diqqəti cəlb etməkdə davam edir. Müxtəlif məzmun mənbələrinin artması televiziya kanallarının daha geniş auditoriyaya müraciət edən müxtəlif tipli verilişlər ortaya qoymasına və keyfiyyətini artırmağa çalışmasına səbəb olur. Əks halda, onlar öz tamaşaçılarını itirmək riski daşıyırlar.

SİA mövzu ilə bağlı media ekspertləri və nümayəndələrinin fikirlərini öyrənib.

**Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid:** "Azərbaycan televiziyası bir informasiya orqanı kimi xalqımızın həyatında mühüm rol oynayıb. Eyni zamanda, Azərbaycan dilinin, ədəbiyyatının, saflığının qorunmasında, xüsusən də sovet illərində Azərbaycan televiziyasının böyük rolu olub. Televiziyanın həm də ictimai fikrə təsiri böyük olub. İndi də orada peşəkarlar çalışırlar. Mən onların ad gününü təbrik edir və daha böyük uğurlar arzulayıram".



**Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət:** "Azərbaycan televizyonçuluğu tarixinin qeyd edilməsi üçün yetərincə səbəblər var. Əgər 1956-cı ildə ilk televiziya efirimiz başlayanda bu qeyri-adi bir şey idisə, özəlliklə də sonrakı uzun müddət ərzində meydanda tək idisə, artıq müstəqillik dövründə Azərbaycan televiziya məkanı öz rəngarəngliyi ilə seçilir. Yəni, Azərbaycan Respublikası ərazisində istər efir, istər peyk, istər onlayn müstəvidə yetərincə çoxsaylı rəngarəng, keyfiyyətli televiziya yayımçıları var.



Azərbaycan hətta özünün ictimai yayımına da sahibdir. Bu baxımdan fikir plüralizminin təmin edilməsi, özəlliklə də cəmiyyəti narahat edən ictimai əhəmiyyətli məsələlərin işıqlandırılması, vətəndaşların, insanlarımızın informasiya alma azadlığının, özünü ifadə azadlığının təmin edilməsi baxımından bizim televiziya məkanımız yetərincə oturuşaraq rəngarəng və güvənlidir. O baxımdan, mən həmkarlarımı təbrik edir, onlara bundan sonrakı işlərində də böyük uğurlar diləyirəm. Nə yaxşı ki, Azərbaycanda, televiziya məkanında belə rəngarənglik və diapozonlu yayım var. Bizim müstəqillik dövründə öyünə biləcəyimiz böyük uğurlardan biri də məhz bu rəngarəngliyin əldə edilməsidir".

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İnformasiya Təminatı və Sənədlərlə İş şöbəsinin müdiri, jurnalist Yadigar Məmmədli:** "Bu günləri həm şərqdə, həm də ümumiyyətlə bölgədə Azərbaycan televiziyasının yaranması günüdür. Bu günün özünün çox böyük şərəfli tarixi var. Ona görə ki, uzun müddət dövlət televiziyası kimi tək fəaliyyət göstərib və bütün məlumatları verə bilib.



Bu gün də Azərbaycan televiziyası özünün avanqard və lider rolunu yenə də oynayır. Bütün televiziya işçilərini mən də təbrik edirəm. Onların da hamısının bayramı mübarək olsun!.

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Televiziyaların cəmiyyətin həyatındakı rolunu inkar etmək olmaz. Sosial şəbəkələrin inkişafı televiziyaların fəaliyyətini bir qədər arxa plana keçirsə də onları bizim həyatımızdan tamamilə silə bilməyib. Bu gün də Azərbaycan tamaşaçısının maraqlı verlişlərə, proqramlara ehtiyacı var və mənim çevrəmdə olan insanların əksəriyyəti hələ də diqqətli, məsuliyyətli televiziya tamaşaçısı olaraq qalır.

Müşahidələrim əsasında onu deyə bilərəm ki, bu gün də Azərbaycanda televiziyaların, xüsusilə də yerli telekanalların kifayət qədər izləyicisi var. Düzdür, televiziyalara münasibət birmənalı deyil. Yerli telekanalların, xüsusilə özəl televiziyaların fəaliyyəti ilə bağlı tez-tez tənqidi fikirlərə rast gəlirik. Bu da təbiidir. İş olan yerdə tənqid də olar. Sağlam tənqid müvəffəqiyyətin rəhnidir. Biz ancaq problemləri göstərməklə, tənqid etməklə öz nöqsanlarımızı düzəldə, televiziyalarımızın fəaliyyətində ciddi dönüş yarada bilərik. Bu baxımdan hesab edirəm ki, tamaşaçıların fikirləri, tənqidləri televiziya əməkdaşlarını, ölkənin televiziya siyasətini həyata keçirən insanları ruhdan salmamalıdırlar.

Tamaşaçılara tamamilə arxa çevirmək də olmaz. Məncə televiziya əməkdaşları, telekanallar tamaşaçıların rəylərini əsas götürməli, onların zövqünü oxşayan verilişlərin hazırlanmasına çalışmalıdırlar.



Televiziya kifayət qədər məsuliyyətli bir sahədir. Mən də uzun müddət müxtəlif televiziya kanallarında ekspert kimi fəaliyyət göstərmişəm. İnsandan dəqiqlik, ciddi mütaliə qabiliyyəti, məsuliyyət və intellektual səviyyə tələb edir. Bu baxımdan televiziyada işləmək digər sahələrdə işləməkdən daha məsuliyyətlidir. Çiynini bu yükün altına verən həmkarlarımı bu gün münasibətilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, onların əməyi, zəhməti həmişə yüksək qiymətləndirilsin, Azərbaycan tamaşaçısının gözü orada-burada yox, öz telekanallarımızda olsun".

***Ayşən Vəli***

# Molla rejimi insanlıq üçün təhlükə mənbəyidir



## 44 ildir ki, əmmaməli mollalar xalqlar həbsxanası təsis edib və onu çox böyük vəhşiliklə "inkişaf" etdirirlər

Fars-molla rejiminin nəinki beynəlxalq aləm üçün, ümumilikdə öz xalqı üçün də fəlakətli rejim olduğu sübuta yetirilib. Ayrı-ayrı ölkələrdə terror aktlarının törədilməsinə 10 milyardlarla ABŞ dolları xərcləyən molla rejimi öz millətinə zülm, məşəqqət, aclıq və səfalət yaşadır. Yəni, 1979-cu ilin fevralında baş vermiş İslam İnqilabının 44 illik dönəmi xalqına heç bir xoş yaşam verməyib. 44 ildir ki, dilindən, milli mənsubiyyətindən asılı olmayarq insanlar ağır həyat tərzi sürürlər. Bir növ rejim 44 ildir ki, xalqlar həbsxanası təsis edib və onu çox böyük vəhşiliklə "inkişaf" etdirirlər. Adi görünən qaydalardan kənara çıxan insanlar vəhşicəsinə döyülür, təhqir edilir, asılmaqla öldürülür, həbsxanalara salınmaqla zindanlarda çürüdülürlər. Zülmün, əsarətin, işgəncənin altındadır. Xüsusilə də Cənubi Azərbaycan əyalətlərində yaşayan azərbaycanlılar fars -molla rejiminin gözündə düşmən olaraq görülür. Demək olar ki, güneyli soydaşlarımız hüquqsuz vəziyyətdədirlər. Onların adət -ənənələrini, mədəniyyətlərini əlindən almağa çalışan əmmaməli mollalar bununla güneyli soydaşlarımıza qarşı düşmən xislətlərini ortaya qoymuş olurlar. Bu da səbəbsiz deyil, molla rejimi hakimiyyətə gələrkən onlara qəti etirazlarını bildirən güneyli soydaşlarımız oldu. Sərt etirazın ağır nəticəsi olaraq molla rejimi minlərlə azərbaycanlını qətlə yetirdi, on minlərlə insanı isə həbsxanalara saldı, evlərini -eşiklərini qarət etdi. Amma güneyli soydaşlarımızın mübarizə əzmini qıra bilmədi, mübarizə bu gün də davam etməkdədir.

### Güney Azərbaycanın müstəqil dövlət elan olunması uzaqda deyil

Görünən ondan ibarətdir ki, güneyli soydaşlarımız öz haqq və hüquqları uğrunda daim mübarizə aparıblar. 1905-ci il Səttərxan, Şeyx Məhəmməd Xiyabani hərəkatı, 1945-ci ildə isə Pişəvəri inqilabı baş verib. Pişəvəri hərəkatı güneyli soydaşlarımızın parlaq dövlətçiliklərini qurmaqla yekunlaşdı. Bu dövlət bir il yaşadı. Təəssüf ki, o vaxtkı SSRİ rəhbərliyinin İran rejimi ilə sıx işbirliyi milli hökumətin süqutu ilə yekunlaşdı. Bir illik dövlətçilik tarixində Pişəvəri hökuməti qadınlarla kişiləri bərabər hüquqlara malik olmasına dair qanun qəbul etdi. Milli Məclis yaradıldı, Milli Ordu formalaşdı, Dövlətin bayrağı yaradıldı, demokratik seçki qanunu qəbul edildi, Azərbaycan dili rəsmi dövlət dili elan olundu. Dilimiz rəsmi dövlət dili oldu. Demokratik milli hökumət devrilsə də, ümidlər sonsuzdur ki, Güneydə müstəqil, azad dövlət yaradılacaq. Bu gün Güneydə 6 aya yaxındır ki, davam edən və bütün dünya azərbaycanlılarının dəstək verdiyi mücadilə onu deməyə əsas verir ki, bəlkə də yaxın vaxtlarda milli dövlətin yaradıldığı elan olunacaq.

### Erməni- molla rejiminin tarixi qardaşlığı

Mövcud reallıq ondan ibarətdir ki, fars- molla rejimi ilə erməni qardaşlığının tarixi uzun illərə gedib çıxır. Əsasən də 1991- ci ildə Azərbaycanın müstəqillik əldə etməsi molla rejiminin ölkəmizə qarşı düşmən siyasətinin daha amansız forma almasına rəvac verdi. Hər vəchlə ermənilərə hərbi-siyasi dəstək göstərməklə torpaqlarımızın işğal edilməsinə yardımçı oldu. Hətta ermənilərlə müəyyən siyasi oyunlar qurmaqla Azərbaycanın başını qarışdırmağa və bununla da ərazilərimizin zəbt edilməsinə köməklik göstərdi. Yada salmaq lazımdır ki, 1992- ci ildə Şuşa işğal olunanda Azərbaycan Respublikasının Milli Məclisinin sədri, eləcə də prezident səlahiyyətlərini icra edən Yaqub Məmmədov Tehranda idi. Orada Ermənistan prezidenti Ter-Petrosyanla cəbhədə atəşkəsə nail olunması ilə bağlı müqavilə imzalayırdı. Belə məqamda Şuşa işğal olundu. Bu, nə deməkdir? Yəni İran Yaqub Məmmədovu aldadaraq Tehrana apardı, ermənilər də asanlıqla Şuşanı işğal etdilər. 20 noyabr 1991-ci ildə Qarakənd səmasında Azərbaycanın dövlət rəsmilərinin və Rusiya hərbçilərinin olduğu vertolyotun vurulmasında da molla rejiminin əli vardı. Sübut olunub ki, bu hadisəni törədən 17 nəfərdən biri "SEPAH"-ın əməkdaşıdır. Həmin terror aktını törədən şəxsləri İran maneəsiz öz ərazisinə keçirdi. İşğalın davam etdiyi dövrdə molla rejimi Ermənistanı bu və ya digər formada dəstəkləyirdi. Hər gün ermənilər heç bir viza, şərt tələb olunmadan Xudafərin körpüsü vasitəsi ilə Tehrana və digər şəhərlərə gedib gəlirdilər. Bu, həm də onu göstərirdi ki, molla rejimi burada Rusiyanın maraqlarını təmsil edirdi. O zaman Ermənistan Rusiya üçün İrana silah ötürməklə bağlı ən yaxşı yol hesab olunurdu. Müxtəlif silahlar, yardımları məhz Rusiya Ermənistan vasitəsi ilə Tehrana çatdırırdı.

### İslamın molla rejiminə aidiyyatı yoxdur

Molla rejimi özünü islam respublikası elan edib. Bu respublikanın banisi ayətullah Xomeneyidir. Xomeneyidən qalma ideologiyaya görə, (bu, həm də xomeneyizm ideologiyası adlanır) müsəlmanın müsəlmandan yaxın dostu yoxdur. İdeologiyanın birinci şərti budur. Amma molla rejiminin indiki və əvvəlki prezidentlərinin apardıqları siyasətə nəzər yetirdikdə, bu ideologiyanın ayaqlar altında tapdalandığını görmək olar. Hazırkı prezident İbrahim Rəisi və əvvəlki terror başçıları özlərini Xomeneyinin davamçıları kimi cəmiyyətlərinə sırımağa çalıblar. Amma onlar Xomeneyizm ideologiyasının birinci prinsipini - Azərbaycanın torpaqlarını işğal edib, 1 milyondan çox insanı ev-eşiyindən didərgin salmış Ermənistanla geniş əməkdaşıiq münasibətləri qurmaqla pozubdur. Bu gün xomeneyizm ideologiyasının mühüm prinsiplərindən biri də islam inqilabının ixracıdır. Amma burada da fərqli mövqe görünür. Yəməndə, Misirdə, Tunisdə inqilablar baş verəndə molla rejimi elan etdi ki, bu, xomeneyizm ideologiyasına əsasən İran inqilabının ixracının təntənəsidir. Molla rejimi Suriyaya qarşı münasibətdə isə əks-mövqe sərgilədi. Halbuki oxşar ssenari, oxşar proseslərdir. Deməli, lazım gələndə, siyasətdə xomeneyist də olmaq olar, başqa halda isə xomeneyzim ideologiyasının əleyhinə siyasət yürütmək də olar. Molla rejiminin ali dini rəhbərliyinin apardığı bu yanlış siyasət regionda vəziyyəti gərginləşdirməklə yanaşı, islam dünyasında da parçalanma yaratmağa xidmət edir. Bu nöqteyi-nəzərdən o qənaətə gəlmək olar ki, əgər yaxın qonşu müsəlman dövləti olan molla rejimi ikili siyasət yeridirsə, o zaman Azərbaycandan uzaq olan ərəb dövlətlərindən Ermənistana qarşı sərt mövqe sərgiləyəcəklərini gözləmək olarmı?

### Azərbaycan regionun lider dövlətidir

Azərbaycanın regionun lider dövlətinə çevrilməsi beynəlxalq münasibətlər sistemində söz sahibi olması da ölkəmizə qarşı qısqanclıq hissinin yaranmasına səbəb olur. Bəzi dövlətlər zahirən özlərini dost ölkə kimi göstərsələr də, əslində, Azərbaycanın dünyada artan gücü, yüksələn iqtisadi potensialı onları narahat edir. Bir çox müsəlman ölkələrində hakimiyyət ilə xalq arasında dərin uçurum yaranıb. Onlar bundan da qısqanırlar ki, Azərbaycan sabit, sakit dövlətdir. Azərbaycanda milli birlik, mövcuddur. Həm də Azərbaycanın 44 günlük Vətən müharibəsi ilə Ermənistanın 30 il ərzində işğal altında saxladığı torpaqlarını azad etməsi molla rejimini, eləcə də əmmaməli mollalar kimi düşünən qüvvələri ciddi narahat edir. Bu səbəbdən də, Azərbaycana qarşı məkrli və terrorizm siyasəti aparırlar. İngiltərə, Fransa və nəhayət, Tehranda səfirliyimizə edilən xain hücumlar ölkəmizin dünyada artan nüfuzuna, gücündən və qüdrətindən narahat olmalarından irəli gəlir. Yanvarın 27-də Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə edilən terror hücumu nəticəsində bir nəfər səfirlik əməkdaşı şəhid edildi, iki nəfər isə ağır yaralandı. Bu günə qədər də molla rejimi səfirliyə edilən xain hücuma düz-əməlli izahat verməyib, həm də dövlət səviyyəsində üzr istənilməyib. Azərbaycan səfirliyinin ərazisi Azərbaycan Respublikasının ərazisi sayıldığı üçün terror aksiyası, eyni zamanda, Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı qəsd kimi qəbul edilməli, sifarişçilərin və icraçıların tez bir zamanda Azərbaycan Respublikasının ədalət məhkəməsi qarşısında dayanması istiqamətində beynəlxalq müstəvidə məsələ qaldırılmalıdır. Azərbaycan səfirliyinə hücum, baş verən terror aksiyası ilə bağlı Beynəlxalq Məhkəməyə müraciət olunmalı, 1961-ci il Vyana Konvensiyasının 22, 23, 24, 25, 27, 29, 31, 37, 47-ci maddələrinin, Konsulluq münasibətləri haqqında 1963-cü il Vyana Konvensiyasının 28, 30, 31, 37, 47-ci maddələrinin, Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə yönəlmiş cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın 4 və 7-ci maddələrinin və BMT Nizamnaməsinin 3 və 4-cü fəsillərinin 2 və 33-cü maddələrinə əsasən, molla rejiminə qarşı iddia qaldırılmalıdır. Azərbaycanın Tehrandakı səfirliyinə edilən hücum BMT, NATO, Avropa İttifaqı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, o cümlədən 60-dan çox ölkənin dövlət başçıları, xarici işlər nazirləri və səfirləri tərəfindən terror aktı kimi pislənmişdir.

Molla rejiminin beynəlxalq hüquq baxımından üzr istəməməsi və bu azmış kimi terrorçuya müəyyən məsələlərdə himayədarlıq etməsi onu deməyə əsas verir ki, terror aktının törədilməsində mollaların rolu var. Bu isə birbaşa molla rejiminin cani və quldur bir rejim olduğunu təsdiqləyir. Söz yox ki, Azərbaycan dövləti səfirliyə qarşı törədilən terror aktının geniş şəkildə pislənməsi və terror aktını törədənlərin cəzalandırılması üçün bütün müvafiq beynəlxalq platformalardan istifadə edəcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin Tehrandakı səfirliyinə xain hücumla əlaqədar tviterdə paylaşımda Tehrandakı səfirliyimizə qarşı törədilmiş terror aktını şiddətlə qınayıb. Paylaşımda deyilir: "Bu terror aktının tezliklə araşdırılacağını və terrorçuların cəzalandırılacağını tələb edirik. Diplomatik nümayəndəliklərə qarşı terror hücumu qəbuledilməzdir!" Dövlət başçımız bu hücumu beynəlxalq hüquq normalarına sığmayan qatı cinayət olaraq qiymətləndirib.

### Fars -molla rejimi 45 illiyini qeyd edə bilməyəcək

Molla rejimi bütün insanlıq və bəşəri dəyərlərdən uzaq olan bir rejimdir. Belə rejimlər sivil, demokratik dünya üçün təhlükə mənbəyidir. Belə təhlükəli terrorçu dövlətin zərərsizləşdirilməsi dünyanın rahat nəfəs alması deməkdir. Fikir versəniz görərsiniz ki, molla rejimi öz xalqına, xüsusilə də yuxarıda qeyd etdiyimiz kimi güneyli soydaşlarımıza qarşı amansızlıq göstərir. Üç aya yaxındır ki, rejimə qarşı etirazlar baş verir. Zorakılığa, qətliamlara məruz qalanlar arasında azərbaycanlılar çoxluq təşkil edirlər. 1000 -ə yaxın insan öldürülüb ki, onlarında yarıdan çoxu azərbaycanlılardır. 73 uşaq qətliamın qurbanı olub, 25 min insan gecələr evlərindən oğurlanaraq zindanlara atılıblar. Bu vəhşilik Xoy şəhərində baş verən zəlzələdən əziyyət çəkən azərbaycanlılara qarşı etinasız münasibətlə davam etməkdədir. Onlarla insan zəlzələnin qurbanı olub, minlərlə ailə evsiz-eşiksiz qalıb, soyuq havada çöldə yaşamaq məcburiyyətində qalıblar. Bəzi ölkələr, o cümlədən çox böyük gücə, qüdrətə malik olan Azərbaycan dövləti, eləcə də Türkiyə və Pakistan, Xoy şəhərində zəlzələdən əziyyət çəkən insanlara humanitar yardım təklif etsələr də, əmmaməli mollalar yardımdan imtina etdilər. Bu isə onu deməyə əsas verir ki, molla rejimi Azərbaycan dövlətinin tarixi torpaqlarında yaşayan soydaşlarımıza humanitar yardımların göstərilməsindən narahatdır. Qorxur, vahimələnir ki, güneyli soydaşlarımız qardaş yardımından ruhlanar və alqış sədaları göylərə yüksələr. Bu isə onlar üçün fəlakət deməkdir. Ancaq əminəm, çox çəkməyəcək ki, biz maneəsiz olaraq Təbrizə, Tehrana, Ərdəbilə, Xoy şəhərinə və digər tarixi torpaqlarımıza gedəcəyik. O gün uzaqda deyil. Qısası, molla rejimi yaratdığı zülmünün, qəddarlığının, vəhşiliyinin 45 illiyini qeyd edə bilməyəcək. Məhv olaraq tarixin zibilliyinə atılacaq və Təbrizdə Azərbaycanın üçrəngli bayrağı dalğalanacaq.

**İ.ƏLİYEV**



# Müşahidə missiyası, yaxud hədəfdəkilər

ANALİTİK

ABŞ-ın Avropa İttifaqı üzərindən postsovet məkanında apardığı hibrid müharibənin başqa bir ocağı da alovlanmaqdadır. "Qoca qitə" Rusiyaya qıcadığı dişlərini qurbanının ən zəif yerinə keçirmək istəyir. Bu yer Ermənistandır. Azərbaycanın 44 günlük müharibədən sonra əldə etdiyi qələbə 30 illik erməni işğalına son verdi, erməni ordusu ölkəmizin sərhədlərində qovuldu. Üçtərəfli Azərbaycan-Rusiya-Ermənistan Bəyanatı imzalandı. Tərəflər gələcək fəaliyyət üçün öhdəlik götürsələr də Ermənistan hələ də bu şərtlərə əməl etmək istəmir. Kommünikasiyaların açılması istiqamətində əməli iş görmək niyyətində olmadığını əyani şəkildə sübuta yetirir. Bütün bunlarla yanaşı Ermənistanın avropalı "dostları" da bir az uzağa gedərək regionda onsuz da kövrək olan vəziyyəti gərginləşdirmək üçün bütün imkanlarından istifadə edirlər. İlk baxışdan məqsədin Rusiyanın Cənubi Qafqazdan çıxarılmasına yönəldiyi olsa da, burada Azərbaycana qarşı hansısa oyunların tərtib olunmadığını istisna edə bilmərik. Bəzi Avropa ölkələrində, Avropa institutlarında Azərbaycana qarşı ədalətsiz mövqe nümayişi də bunu sübut edir.

Avropa İttifaqının Ermənistana geniştərkibli (100 nəfər) "mülkü müşahidə missiyası"nı göndərməsi bir çox suala cavab verir. Sayca ikinci missiyanın Ermənistanın Azərbaycanla sərhəd bölgələrində iki il müddətinə yerləşdirilməsi nəzərdə tutulur. Avropanın bu addımı, təbii ki, Azərbaycanda haqlı narazılığa səbəb olub. Xarici İşlər Nazirliyi bu qərara etiraz edib və diqqətə çatdırılıb ki, Avropa İttifaqı missiyasının mövcudluğunun hazırkı dialoq mexanizmlərinə qarşı sui-istifadəsi təhlükəlidir və bundan çəkinilməlidir. Əgər problem sərhəd məsələsidirsə, onda iki ölkənin sərhədində niyə demarkasi və delimitasiya prosesi həyata keçirilmir, daha doğrusu İrəvana sərhədlərin dəqiqləşdirilməsinə nə mane olur. Yeni müharibə aparmaq Ermənistana sərf etmir, çünki çox zəifdir. Həm də bu müharibəni suveren Azərbaycan ərazilərinə qarşı etməli olacaq ki, bu da dünyada birmənalı qarşılanmayacaq.

Avropanı da anlamaq olmur, Azərbaycanın etiraz edəcəyini bildiyi halda Brüssel nə səbəbə Ermənistana uzunmüddətli missiya göndərsin? Missiyanın əsl hədəfi nədir? 2022-ci ildə Brüsseldə Aİ-nin Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri dörd görüş keçiriblər. Görüşlər zamanı tərəflər arasında yekun sülh sazişinin imzalanması istiqamətində müzakirələr aparılıb. Belə təsəvvür yaranmışdı ki, tez bir zamanda Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalanacaq. Amma Praqa görüşü hər şeyi dəyişdirdi. Ermənistana verilən ilk dəstək Avropa İttifaqının 40 nəfərlik müşahidə missiyasının Ermənistan-Azərbaycan şərti sərhədinə göndərilməsi oldu. Belə bir missiyasının Azərbaycana göndərilməsinə isə rəsmi Bakı icazə vermədi. Əvəzində sülh naminə əməkdaşlığa razı olduğunu bəyan etdi. Dekabrın 19-da başa çatan müşahidə missiyasının əvəzinə bu dəfə də Ermənistana 100 nəfərlik kəşfiyyatçı-jandarmlardan, keçmiş polis əməkdaşlarından, dəniz piyadalarından ibarət heyətin göndərilməsi artıq başqa mətləblərdən xəbər verir. Buna zəruriyyət var idimi? Bu sualın cavabı da maraqlıdır. Avropa İttifaqı Ermənistana müşahidə missiyası göndərməklə gələcək sülh danışıqlarına böyük problemlər yaradır.

Azərbaycan Ermənistanla münasibətlərin tənzimlənməsi üçün 5 maddədən ibarət şərtlərini irəli sürüb. Aparılan bütün müzakirələrdə, o cümlədən bəzi erməni rəsmilərin də dediyi kimi bu şərtlər məqbul və ədalətlidir. Həmin şərtlər Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına xidmət edir. Amma İrəvan bir tərəfdən şərtləri qəbul etdiyini deyir, digər tərəfdən yekun sülh müqaviləsindən yayınmağa çalışır. Çexiyanın paytaxtında baş verənlər, yeni missiyanın göndərilməsi haqqında qərarın qəbulu görülən işlərin üstündən xətt çəkdi. Ermənistan kənar qüvvələrin istəyi naminə öz maraqlarından imtina etdi. Kənar qüvvələr, yəni Qərbdəki dairələr isə münaqişənin davamlı olmasında maraqlıdırlar.

Azərbaycan təkbaşına olsa belə regionda sülhün davamlı olmasına çalışacaq. Azərbaycanın bütün imkanları, resursları və manevr şəraiti bölgədə sülhü təmin edəcək qədərdir. Başlıca məqsədimiz bütün ərazilərimizdə suverenliyimizin təmin olunmasıdır. Prezident İlham Əliyev ABŞ dövlət katibi Entoni Blinkenlə telefon danışığı zamanı bildirmişdi ki, sərhədlərimiz daxilində yaşayan ermənilərin hüquqlarına və təhlükəsizliyinə Azərbaycan öz qanunlarına uyğun olaraq təminat verir. Bu ərazilərdə separatçılığa isə yer yoxdur.

Rəsmi Bakı hesab edir ki, Avropa İttifaqı (Aİ) Şurası Ermənistanda monitorinq missiyası yerləşdirərkən onun "legitim maraqları nəzərə alınmalıdır", Ermənistan isə bu missiya ilə "əməkdaşlıq edəcəyini" deyib. Avropa İttifaqı Şurası bazar ertəsi sərhəd ərazilərdə "sabitliyə töhvə vermək" məqsədi ilə Ermənistanda mülki missiya yaratmaq barədə razılığa gəlib. Qurum bildirib ki, bu missiya vasitəsi ilə iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində əlverişli mühitin və etimadın yaradılmasına çalışacaq.

Beynəlxalq Böhran Qrupunun şərhçiləri isə hesab edirlər ki, belə bir missiyanın mövcudluğu iki ölkə arasında gərginliyi azalda bilər, amma uğurlu nəticə əldə olunması üçün missiyanın mandatı və maliyyə imkanları məhdud olmamalıdır. Göründüyü kimi, Avropa İttifaqı missiya adı altında daha uzun müddətə bölgədə qalmaq niyyətindədir.






## Azərbaycan və Ermənistan missiyadan nə gözləyir?

Azərbaycan Xarici İşlər Nazirliyi monitorinq missiyasının sərhədlərin delimitasiyası prosesi də daxil olmaqla, Azərbaycan və Ermənistan arasında normallaşma prosesinə "xələl gətirmək məqsədilə sui-istifadə edilməməlidir" və monitorinqlər "qarşılıqlı inam və etimadı sarsıtmayacaq şəkildə həyata keçirilməlidir" deyə açıqlama yayıb.

Ermənistan hakimiyyəti isə Avropa İttifaqı Şurasının missiya ilə bağlı qərarını müsbət qarşılayıb. Ermənistanın XİN rəhbəri Ararat Mirzoyan sosial şəbəkə hesabında yazıb ki, İrəvan "missiya ilə əməkdaşlıq edəcək və onun bütün fəaliyyətini dəstəkləyəcək. Bu missiya regionda sülhə, sabitliyə və təhlükəsizliyə töhvə verəcək".

## Beynəlxalq Böhran Qrupu nə istəyir?

Bir müddət əvvəl Beynəlxalq Böhran Qrupu monitorinq missiyasının hər iki tərəf üçün əlverişli variantlar tətbiq edəcəyini bildirib. Azərbaycan və Ermənistan arasında 2023-cü ildə daha bir müharibənin başlayacağı ehtimalını istisna etməyən Qrup Aİ missiyasının bölgədə müharibə riskini azaldacağı qənaətindədir. Təşkilatın Cənubi Qafqaz üzrə baş analitiki Olesya Vartanyan açıqlamasında bildirib ki, Aİ-nin monitorinq missiyası qərarı Azərbaycanla Ermənistan arasında mövcud gərginlikləri azaldacağını qeyd edib və əlavə edib ki, bu, təqdiredici addımdır: "Bu yolla Avropa İttifaqı həm də özünün vasitəçiliyi ilə aparılan sülh danışıqlarını yenidən davam etdirəcək".

Vartanyan açıqlamasında növbəti cümləsi ilə missiyanın əsl məqsədini açıb. O hesab edib ki, əgər iki illik monitorinq missiyasının kiçik büdcəsi, məhdud giriş imkanları və ya məhdud mandatı olarsa, bu fəaliyyət "səmərə verməyəcək": "Missiya iştirakçıları monitorinq aparmaq və insidentləri qeydə almaqla yanaşı, həm də tərəflər arasında yerli səviyyədə dialoqun gücləndirilməsində fəal iştirak etməlidir".

Azərbaycanın mövqeyi bəllidir, rəsmi Bakı monitorinq qrupu ilə əməkdaşlıq etmək niyyətində deyil. Belə olan halda müşahidə missiyasının fəaliyyəti yarımçıq olacaq. Rusiyanın mövqeyi isə hələ də müəmmalıdır. Moskva missiya ilə əməkdaşlıq barəsində susmağa üstünlük verir. Amma nə vaxtsa mömqelərdə dəyişiklik olacağı istisna deyil. Avropa İttifaqı Ermənistanın bütün sərhədlərinə və üstəlik Qarabağda müəyyən ərazilərdə sülhməramlı missiyada təkbaşına iştirak edən Rusiyanın reaksiya verməyəcəyini də düşünmür. Məhz bu yanaşma Avropanı narahat edir.

Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrell bu missiyanı qurumun Cənub Qafqazla münasibətlərində "yeni mərhələ" adlandırıb: "Biz de-eskalasiya cəhdlərini dəstəkləməyə davam edəcəyik və regionda davamlı sülhün əldə edilməsi üçün hər iki tərəflə yaxından işləmək öhdəliyinə sadiqik".

Aİ Şurasının yaydığı məlumata görə, missiya, həmçinin Avropa Şurasının Prezidenti Şarl Mişelin rəhbərlik etdiyi proses çərçivəsində vasitəçilik səylərinə töhfə verəcək. Fransanın XİN rəhbəri Katerina Kolonna bu qərarın çox vacib olduğunu və Fransanın bu missiyasda iştirak etməkdən "məmnun olduğunu" bildirib.

## Bəs, Rusiya bu missiyadan nə gözləyir?

Rusiyada hesab edirlər ki, Avropa İttifaqının müşahidə missiyası yeni savaşın "müjdəçiləri"dir. Məqsəd gizli deyil, bütün bu tərtibat Rusiyanın Cənubi Qafqazdan "qovulması"na hesablanıb. "Rusiyanın getməsinin ilkin səbəbini çox güman ki, Ermənistan sakinlərinin istəklərdə axtarmaq lazımdır. Tam əminliklə deyə bilərəm ki, bu, Rusiyanın planlarına uyğun deyil. Cənubi Qafqaz çox mühüm regiondur və Rusiya həm coğrafiyasına, həm də tarixi, mövcud əlaqələri baxımından faktiki olaraq bu regionun bir hissəsidir. Bundan başqa, bizim Ermənistan qarşısında öhdəliklərimiz var, biz bu öhdəliklərdən imtina etmək fikrində deyilik. Xəyali gedişimiz haqqında danışmaq fərziyyədir. 2020-ci il hadisələrindən sonra Ermənistan tərəfinin xahişi ilə sayı artırılan və digərləri ilə yanaşı, Ermənistan-Azərbaycan sərhədində yerləşdirilən Rusiya hərbi bazası, sülhməramlı kontingenti və sərhədçiləri - bütün bunlar çox mühümdür. sabitlik amili və eskalasiyanın qarşısını alır.





Yenə deyirəm, Rusiyanın mövcudluğunun rolunu hiss etmək üçün, yəqin ki, sərhəd kəndlərinin, kəndlərinin sakinləri ilə danışmaq lazımdır. Onların fikri reallığa ən yaxın olacaq. Siyasi təbliğat da var, real həyat da var. Və buradan çıxış etmək lazımdır ki, bu mövcudluq həmin ərazilərdə yaşayan və onlar üçün "təhlükəsizlik" sözünün boş söz olmadığı insanlar tərəfindən necə dəyərləndirilir", deyə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin ölkəsinin mövqeyini çatdırıb.

Səfir Laçın yolunda baş verənlərə və buna tərəflərin hansı reaksiya verdiyinə də diqqət çəkib. Qeyd edib ki, yolun açılması üzərində intensiv iş gedir: "Bu, sülhməramlı kontingentin komandanlığı səviyyəsində də aparılır. İş çox çətindir, bir çox amillərə bağlanır. Vəziyyətlə hansısa şəkildə bağlı olan bütün tərəflərlə iş aparılır. Eyni zamanda kontingent ona həvalə edilmiş funksiyaları yerinə yetirməkdə davam edir. Problem üçtərəfli bəyanatlarda (Ermənistan, Rusiya və Azərbaycan liderlərinin) qeyd etdiyi bütün razılaşmaların tərəflər tərəfindən yerinə yetirilməsi də daxil olmaqla, kompleks məsələlərlə bağlıdır. Bu, hər iki tərəfin həll etməli olduğu məsələdir. Rusiya keçmiş sovet respublikalarının sərhədlərini və ərazi bütövlüyünü tanıyan Alma-Ata Bəyannaməsinə istinad edildiyi Praqa Bəyannaməsinə diqqət çəkir".



Yeri gəlmişkən, ABŞ və Avropa regionda və xüsusən də Ermənistanda çox fəallaşıb. Bu kontekstdə, Rusiya Xarici İşlər Nazirliyi Ermənistana Aİ-nin yeni missiyasının göndərilməsi xəbərini kifayət qədər təmkinli, lakin şübhə ilə qarşılayır. Rusiyada hesab edirlər ki, bu missiya onlar üçün təhlükəli deyil. Moskvada avropalıların, NATO-nun əlavəsinə çevrilən Avropa İttifaqının indi hansı xətti tutduğunu yaxşı bilirlər. Aİ-nin Rusiyanı məhz Cənubi Qafqazda strateji məğlubiyyətə uğratmaq istəyi də ortadadır. Aydındır ki, təkcə Ukrayna ilə bağlı vəziyyətdə deyil, həm də daha geniş kontekstdə müvafiq addımlar atılır. ABŞ dövlət katibinin müavini Karen Donfriedin bu yaxınlarda verdiyi müsahibəsindəki bəyanat da diqqət çəkəndir. Qərbin məsələyə münasibətində qırmızı bir xətt keçir. Onlar Cənubi Qafqazda yerləşmələrinin əsas səbəbinin İran və Rusiya olduğunu açıq şəkildə deyirlər. Moskva və Tehran da bundan xəbərdardır. Qərb düşünür ki, Rusiya və İranın regionda fəallaşıb və bu, Ermənistan və Azərbaycan arasında normallaşma prosesinin sürətini aşağı salır. Məsələnin necə tərtib olunduğu indi anlaşılır. Yəni, Ermənistan və Azərbaycan xalqlarının maraqları deyil, Rusiya və İranın bölgədə fəallaşması Qərbi narahat edir. Bu yanaşma təbii ki, regiondakı aktorların hamısını ciddi narahat edir. Hər kəs də normallaşma prosesinin məhz onun vasitəsilə daha uzunmüddətli və dözümlü, o cümlədən tərəflərin hər birini qane edəcəyini bildirir. Amma biz görürük ki, burada tamamilə fərqli vəzifələr, davamlı sülhün bərqərar olmasına imkan verməyən məqsədlər dayanır.

Baş verənlərə, İrəvanla Moskvanın artıq açıq müstəviyə keçən savaşına, fərziyyələrə baxmayaraq, Rusiya Ermənistanın müttəfiqi olaraq qalır, onu özünün müttəfiqi kimi qəbul edir. Bu, Rusiya Federasiyasının həm ikitərəfli münasibətlər sahəsində, həm də regional problemlərin həllində gördüyü addımları müəyyən edir. Rusiya Ermənistan üçün, onun vətəndaşları üçün, Ermənistan isə Rusiya üçün çox önəmlidir. Rusiya Afrika ölkələrində yeni istinad yerləri uğrunda əsl müharibəyə qalxıb. Ukraynada gedən ağır müharibəyə baxmayaraq uzaq ölkələrdə mövcudluğunu davam etdirmək niyyətindədir. Uzun illərdir ki, Ermənistanda mövcud olan, bu ölkənin bütün sahələrini ələ keçirən Rusiya 100 nəfərlik missiyanın Ermənistana gəlişindən sonra buralardan çəkib gedəcəyini düşünənlər sadəlöhv insanlardır. Ermənistanın sərhədləri də, iqtisadiyyatı da, xidmət sahələri də, ermənilərin aldığı nəfəs də Rusiyaya məxsusdur. Rusiya Ermənistandan gedərmi?

***V.VƏLİYEV***

# Heydər Əliyev-100

Azərbaycan xalqının böyük oğlu, müasir Azərbaycan Respublikasının memarı və xilaskarı, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin bu il anadan olmasının 100 ili tamam olur. Zaman keçdikcə Heydər Əliyev dühasının əzəməti, böyüklüyü, xalqımız və müstəqil dövlətçiliyimiz üçün göstərdiyi misilsiz, təkrarolunmaz xidmətləri daha aydın və qabarıq şəkildə nəzərə çarpır. Heydər Əliyev təkcə Azərbaycan xalqının deyil, bütövlükdə türk dünyasının görkəmli öndərlərindən biridir. Heydər Əliyev yeni tarix yaradan dövlət xadimi olmuşdur. Həyatı daima xalq və haqq yolunda mübarizədə keçən bu dahi insan məhz özünün fitri istedadi, yüksək intellekti, fenomenal yaddaşı, rəhbərlik məharəti, cəsarəti, mərdliyi, güclü iradəsi, idarəçilik mədəniyyəti, böyük həyat və dövlətçilik təcrübəsi ilə bütün bu çətinliklərin öhdəsindən ləyaqətlə gəlmiş, Azərbaycan xalqını və dövlətini məhv olmaq təhlükəsindən xilas etmiş, ölkəmizi iqtisadi tənəzzüldən inkişaf və tərəqqi yoluna çıxarmışdır. Azərbaycanın taleyi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır.





*Sultanəli Qurbanov,*
*YAP Səbail ƏPT-nin sədri, f.ü.f. doktoru, dosent*

## Ulu Öndər Heydər Əliyev - Müasir Azərbaycanın memarıdır!

Xalqın ictimai-siyasi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır.

Heydər Əliyevin daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyini düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. Buna görə də Heydər Əliyev fenomeni həmişə diqqəti cəlb etmiş, onun siyasi fəaliyyəti istər ölkədə, istərsə də dünyada böyük rəğbətlə qarşılanmışdır. Heydər Əliyev sözün əsl mənasında müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan xalqının xilaskarı, dünya azərbaycanlılarının Ümummilli Lideridir. Çünki "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib" - deyən Heydər Əliyev fəaliyyətinin bütün mərhələlərində Azərbaycanın inkişafına, milli həmrəyliyin təmin olunmasına, dövlət maraqlarının qorunmasına və dövlətçilik ənənələrinin yaşadılmasına xidmət edən misilsiz işlər görmüş, böyük tarixi nailiyyətlərə imza atmışdır. Prezident İlham Əliyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyev həm sovet dövründə, həm müstəqillik ərəfəsində, həm də müstəqillik dövründə xalq qarşısında, dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir. Dövlət başçısı vurğulayıb ki, Heydər Əliyev dahi şəxsiyyətdir, böyük liderdir, uzaqgörən, cəsarətli siyasi xadimdir. "O bütün dövrlərdə Azərbaycan xalqına sədaqətlə xidmət edirdi, xalq üçün yaşayırdı, yaradırdı. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoymuşdur. Bu onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq Heydər Əliyev həmişə ən düzgün siyasət aparırmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir."

Sovet dövründə 1969-cu ilin 14 iyulunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyev 13 il ərzində respublikamızı aqrar-sənaye ölkəsinə çevirdi. Bu dövrdə Azərbaycan iqtisadi inkişaf tempinə görə bütün respublikaları geridə buraxaraq ən mühüm sosial-iqtisadi göstəricilərə görə birinci üçlükdə yer aldı. Hələ SSRİ dövründə Heydər Əliyev milli-mədəni dəyərlərimizin, dilimizin qorunub saxlanması, respublikamızın inkişafı və perspektivi üçün möhkəm təməllər yaratdı. Belə ki, sənaye müəssisələrinin tikilib istifadəyə verilməsi sahəsində irəliləyişlər qeydə alındı. Neft sənayesi inkişaf etdi, respubllika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat müəssisələri açıldı. Azərbaycan gedən tikinti-quruculuq işləri Bakının və respublikanın rayonlarının simasını dəyişdirdi. Mədəniyyət sahəsində görülən işlər, həyata keçirilən tədbirlər incəsənətdə mühüm dəyişikliklər və inkişaf meyilləri yaratdı. Heydər Əliyevin uzaqgörənliyi, cəhdləri və təşəbbüsü sayəsində Azərbaycan SSR-nin Konstitusiyasına "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir" maddəsinin daxil edilməsi böyük əhəmiyyətə malik idi. 1969-cu ildən başlayıb 1982-ci ildə sona çatan böyük inkişaf və rifah yolu Azərbaycanın gələcək tərəqqisinin əsaslarını formalaşdırdı. Bu illər haqda Heydər Əliyev qeyd edib ki, Azərbaycanın Sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır. 90-cı illərdə SSRİ-nin dağılması nəticəsində müstəqilliyini əldə edən Azərbaycana rəhbərlik edənlərin zəifliyi, cəsarətsizliyi, xalqın milli maraqlarından çox şəxsi maraqları, ambisiyaları və nəyin bahasına olursa olsun hakimiyyətdə qalmaq uğrunda apardığı mübarizə ölkədəki böhranlı vəziyyəti daha da ağırlaşdırmışdı, bir sözlə Azərbaycan parçalanaraq məhv olmaq təhlükəsi qarşısında qalmışdı. Möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycanın müstəqillik tarixinin ilk illərini belə xarakterizə etmişdir. "... 1991-ci ilin oktyabr ayından 1992-ci ilin yay aylarına qədər olan dövr itirilmiş imkanlar, itkilər dövrü idi. ... 1992-ci ilin yay aylarından 1993-cü ilin iyun ayına qədərki dövr biabırçılıq, rüsvayçılıq, fəlakət dövrü idi."

Həmin dövrdə ölkədə mövcud olan vəziyyət xalqın dəstəyinə arxalanan, vətənpərvər, dövlətçilik təcrübəsinə və liderlik keyfiyyətlərinə malik şəxsiyyətin, onun timsalında yeni siyasi qüvvənin meydana çıxaraq tarixi-siyasi məsuliyyəti öz üzərinə götürməsini zəruri edirdi. Yalnız qətiyyətli, təcrübəli siyasi lider uğurlu siyasət həyata keçirərək və milli həmrəyliyi təmin edərək Azərbaycanın xilasına nail ola bilərdi. O dövrdə bu lider bəlli idi, yalnız Vətəninə, xalqına, müstəqil milli dövlətinə bütün varlığı ilə bağlı olan, böyük idarəçilik məharətinə və təcrübəsinə malik olan Heydər Əliyev ola bilərdi. Azərbaycan xalqı ümidini müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasətçi Heydər Əliyevə bağlamışdı. Belə çətin və mürəkkəb vəziyyətdə Heydər Əliyev böyük cəsarətlə xilaskarlıq missiyasını öz üzərinə götürərək ümumxalq dəstəyi nəticəsində Azərbaycanın vətənpərvər oğulları Heydər Əliyevin ətrafında sıx birləşərək, Yeni Azərbaycan Partiyasının yaradılmasında və müasir Azərbaycan dövlətçiliyinin qurulmasında yaxından iştirak etdilər. Heydər Əliyev o dövrdə ölkədə gedən dağıdıcı proseslərin qarşısını almaq üçün, onu düçar olduğu dərin siyasi, iqtisadi, ictimai, hərbi böhran uçurumundan xilas etmək məqsədilə Yeni Azərbaycan Partiyasını yaratdı və ilk sədri yekdilliklə Heydər Əliyev seçildi. İkinci dəfə Azərbaycanda Heydər Əliyevin rəhbərliyə gəlişi ölkəni düçar olduğu ağır vəziyyətdən çıxartdı və Azərbaycan müstəqil dövlət kimi tanındı. 2003-cü ildə cənab İlham Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi nəticəsində bu gün ölkəmizdə müasir, müstəqil Azərbaycan dövlətinin banisi ümummilli lider Heydər Əliyev siyasəti yaşayır və cəmiyyətimizin həyatında, dünyada baş verən proseslərə, müasir dövrün tələb və çağırışlarına uyğun olaraq təkmilləşdirilir və uğurla davam etdirilir. Bu ümummilli inkişaf yolu müasir Azərbaycanın memarı ümummilli lider Heydər Əliyevin xalqımızın suveren və firavan gələcəyi ilə bağlı arzularını tam gerçəkliyə çevirməklə yanaşı, bizi daha böyük uğurlara, tərəqqiyə aparır.

ANALİTİK + AKTUAL

# Volodin, ardınca isə "Nezavisimaya qazeta" İrəvana nəyi işarə etdi..?

## Rusiyanın yalnız siyasi dairələri deyil, nüfuzlu media qurumları da Ermənistana xəbərdarlıq siqnalları yollamağa başlatdılar

**Bu günlərdə Rusiyanın Dövlət Dumasının sədri Vyaçeslav Volodin Azərbaycan Milli Məclisinin spikeri Sahibə Qafarova ilə görüşündə kifayət qədər diqqətçəkən fikirlər səsləndirdi. O, əsasən qeyd etdi ki, Ermənistan rəhbərliyinin Qərbə doğru meyillənməsi bu ölkənin dövlətçiliyinin itirilməsi ilə nəticəsini tapacaq. Xüsusilə, erməni hökumətinin öz ərazisində, əslində, Avropa İttifaqının yarımhərbi xarakterli müşahidə missiyasını yerləşdirməsi Rusiyanın maraqlarına birmənalı olaraq əks istiqamətdə dayanır və bu bəyanat da məhz həmin mövzuya doğru yönəldilib. Volodinin ATƏT, AŞPA, yaxud Avropa Parlamentinin hər hansı kəskin situasiya ilə bağlı yaranmış problemin hazırkı dövrə qədər həll edilmədiyi barədə faktları da önə sürüb və bu faktlar həqiqətən də reallığı əks etdirir.**

Lakin Rusiyada eyni cür yalnız rəsmi şəxslər düşünmürlər, həmçinin, orada dərc edilən media orqanları da artıq bu barədə gen-bol yazılarla çıxış edirlər. Təbii ki, bütün bunların təməlində dayanan əsas faktorlardan biri Ermənistanda anti-Rusiya siyasətinin artması, ölkənin ictimai-siyasi rəyində bu motivlərdəki çıxışların sürətlə çoxalmasıdır.

### "Nezavisimaya qazeta" yazır ki, Nikol Paşinyanın Aİ missiyası ilə bağlı əsaslandırmaları Rusiya Federasiyasında qıcıqla qarşılandı

Misal üçün, "Nezavisimaya qazeta" ("NQ") Cənubi Qafqaz regionundakı situasiyaya həsr olunmuş "Ermənistanın geosiyasi cəhətdən Qərbə doğru can atması hansı marağa söykənir?" sərlövhəli məqalə ilə çıxış edib və həmin məqalədə olduqca diqqətçəkən nüanslara toxunulub. Həmin nüanslardan bir neçəsini diqqətə çatdıraq. SİTAT: "Moskva erməni liderlərinin Aİ nümayəndələrinin Azərbaycanla sərhədə toplaşmaları ilə bağlı bəyanatlarına inanmır. Baş nazir Nikol Paşinyanın Aİ missiyasının Ermənistana Rusiya və Ermənistan ordularının hərəkətləri zamanı Azərbaycanın bu müttəfiq ölkələrin ona qarşı əməliyyatlara hazırlaşmaqda ittiham irəli sürə bilməməsi üçün gəldiyini əsaslandırmağa çalışması Rusiya Federasiyasında aşkar anlaşılmazlıq və qıcıq yaradan amil olaraq qarşılandı".

### "NQ" yazır: ""Alovun üzərinə yağ tökən məlumatlardan biri də budur ki, Aİ missiyası heç də tamamilə mülki deyil, belə ki, orada fransız jandarmları da iştirak edəcəklər"


«Независимая газета»: Противоречия между Москвой и Ереваном могут привести к превращению Армении в военную площадку

Ереван увяз в противоречиях между Западом и Россией
Миссия наблюдателей ЕС в Армении может быть не вполне гражданской

"NQ" daha bir maraqlı məqama toxunub. Daha doğrusu, Aİ-nin müşahidə missiyasının heç də birmənalı olaraq mülki olmadığı faktını önə sürüb. SİTAT: "Alovun üzərinə yağ tökən məlumatlardan biri də budur ki, Aİ missiyası heç də tamamilə mülki deyil, belə ki, orada fransız jandarmları da iştirak edəcəklər. Rusiyanın siyasi dairələrində erməni hökumətinin geosiyasi cəhətdən istiqamətini dəyişdirmək arzusunda olması şübhələri möhkəmlənməkdədir".

Məhz bunun ardınca adıçəkilən rus nəşri İrəvanın KTMT ilə mürəkkəb münasibətləri barədə xatırlatmalar edib və yazıb ki, artıq bu barədə danışmaq izafidir...

### Adiçəkilən nəşr Ermənistanın Qərblə Rusiya arasındakı toqquşmalarda Suriya və Ukraynadan sonra üçüncü hərbi platsdarma çevriləcəyi mümkünlüyünü vurğuladı!

"NQ" qeyd edir ki, bu gün Rusiya ilə Qərb arasında toqquşmalar iki nöqtədə gedir - Suriyada və Ukraynada. Və bu yerdə, məqalənin əvvəlində də qeyd edildiyi kimi, Rusiya Dumasının spikeri Volodin Ermənistanın dövlətçiliyini itirəcəyi ilə bağlı xəbərdarlığı yada düşür. Çünki qəzet də demək olar ki, eyni hədəfi vurur. Daha dəqiq desək, Rusiya ilə Qərbin toqquşması mənzərəsində üçüncü ölkənin Ermənistan olacağına işarə edir. SİTAT: "Mümkündür ki, Ermənistan üçüncüsü olsun. Ciddi problem ondan ibarətdir ki, artıq İrəvan diplomatik meydanda baş verən Qərblə Moskva arasındakı ziddiyyətlərin ortasında dayanıb. Moskva ilə İrəvanın ziddiyyətləri ona doğru aparır ki, Ermənistan hərbi meydançaya çevriləcək".

Əslində, bu, gözlənilən idi. Zamanında Rusiyanın forpostu olmuş bir ölkənin indi həmin vəziyyətdən çıxması cəhdləri həqiqətən də riskli bir addımdır. Və fakt da budur ki, Kreml hər şeyə rəğmən, hətta Ukraynada uzanan müharibəyə baxmayaraq İrəvana, reallıqda isə Qərbə qarşı cəbhə açmaq məcburiyyətində qalacaq. Söz yox ki, Qərbə də bu lazımdır ki, Rusiya Ukrayna cəbhəsində daha ağır situasiyalarla qarşı-qarşıya qalsın. Ermənistan isə, sadəcə, platsdarmdır və bir gün Moskva Ermənistanla bağlı ciddi ölçülər götürməyə başlasa nə Aİ, nə də bütövlükdə Qərb İrəvana lazım olan dəstəyi göstərməyəcək. Hər halda, proseslər də buna doğru inkişaf etməkdədir.

*Rövşən RƏSULOV*

## "Aksiyanın tarixi əhəmiyyətli nəticəsi olacaq"

"Şuşada, Laçın-Xankəndi yolunda artıq 65 gündür ki, davam edən eko-aksiya, hesab edirəm ki, ən yüksək səviyyədə əhəmiyyətli tədbir kimi tarixdə həmişə xatırlanacaq". Bunu "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.



Onun sözlərinə görə, QHT nümayəndələrinin və medianın təşəbbüsü ilə başlanan aksiya bu gün ümummilli aksiyaya çevrilib: "Asan könüllülərin fədakarcasına aksiyaya qoşulması onun yüksək coşqu ilə, qətiyyətlə tələblər yerinə yetirilənə kimi davam etməsinə səbəb oldu. Bu aksiyanın əleyhinə təbliğat quran Ermənistan və onları dəstəkləyən qüvvələrin fəaliyyəti, əslində, onların özlərinin zərərinə işlədi və antitəbliğat oldu. Ekologiya məsələsinin bütün dünyada prioritet siyasətlərdən biri olduğunu anlamayan qarşı tərəf hər vasitə ilə onu erməni xalqına qarşı yönəlmiş tədbir kimi təqdim etməyə çalışdı. Görünür, erməniləri idarə edən güclər söz vermişdilər ki, bu təbliğatda onlara hər cür dəstək verəcəklər. Amma aksiyaçıların heç bir beynəlxalq hüquq normalarından kənara çıxmamaları, bu baxımdan, dözüm və dəyanət nümayiş etdirmələri aksiyanın normal, dinc aksiya olduğuna dünyanı inandırmağa nail oldu. Bu baxımdan, aksiyanın bütün iştirakçılarını alqışlamağa dəyər. Hər gün həm Xankəndinə, həm də Xankəndidən Laçın istiqamətinə gedən sülhməramlılara, qırmızı xaç cəmiyyətinə məxsus onlarla avtomobilin sərbəst gediş-gəlişinə şərait yaradılması kifayət qədər səbir və təmkin tələb edir. Aksiya iştirakçıları bu səbri və təmkini özlərində tapdılar və düşmənə heç bir fürsət buraxmadılar. İnanıram ki, sonda qarşı tərəf eko-fəalların tələblərini qəbul etmək zorunda qalacaq ki, bu da aksiyanın tarixi əhəmiyyətli nəticəsi olacaq".

*Gülyanə*

## "Hər iki ölkəni dostluq və əməkdaşlıq əlaqələri bağlayır"

"Hazırda ayrı-ayrı dövlətlər Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəal rolunu, praqmatik xarici siyasət kursunu yüksək qiymətləndirir, respublikamızla müxtəlif sahələri əhatə edən tərəfdaşlıqların inkişafına böyük önəm verirlər". Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib.

Onun sözlərinə görə, dövlətimizin xarici siyasət kursunda İtaliya Respublikası ilə qarşılıqlı faydalı münasibətlər mühüm yer tutur: "Hər iki ölkəni dostluq və əməkdaşlıq əlaqələri bağlayır. Tərəflərin münasibətləri ortaq faydalı tərəfdaşlıq xarakteri daşıyır. Həm İtalya Həm də Azərbaycan rəhbərlərinin qarşılıqlı səfərləri münasibətlərin inkişafına böyük təkan verir".

Deputat sözlərinə belə davam edib: "Cənab Prezident İlham Əliyevin ötən il İtaliyaya işgüzar səfəri münasibətlərin inkişafında böyük əhəmiyyət kəsb etdi. Həmin səfər çərçivəsində bir sıra yüksək səviyyəli görüşlər keçirilib, qarşılıqlı faydalığa əsaslanan yeni əməkdaşlıqların da əsası qoyuldu. Həmçinin, ölkə başçısının bu səfəri zamanı qarşılıqlı münasibətlərin daha da inkişaf etdirilməsinə dair faydalı müzakirələr aparılıb.



Son zamanlar isə hər iki ölkə arasındakı təhsil sahəsində əməkdaşlığı yüksək qiymətləndirilir. Bakıda İtaliya-Azərbaycan Universitetinin yaradılması da buna bariz nümunədir. Bu unversitet gələcək də yüksək ixtisaslı mütəxəssislərin hazırlanması baxımından olduqca faydalı olacaqdır. İtaliya Avropada Azərbaycanın böyük ticarət və ixracat tərəfdaşıdır. Pandemiya dövründə də iki ölkə arasında ticarət dövriyyəsinin həcmi pandemiyadan əvvəlki dövrün göstəricilərini təkrarlayıb, həmin dövrdə bir çox ölkələrin ticarət göstəriciləri aşağı düşsə də, Azərbaycan və İtalya arasındakı iqtisadi əlaqələrə təsir etmədi. Azərbaycan da İtaliyanın Cənubi Qafqaz ölkələri ilə arasında ən iri ticarət tərəfdaşıdır ki, bu bölgədə İtaliyanın apardığı ticarətin 90 faizindən çoxu Azərbaycanın payına düşür. Hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və digər sahələrdə 100-dən çox İtaliya şirkəti fəaliyyət göstərir. Prezident İlham Əliyev İtaliyanın "İl Sole 24 Ore" qəzetinə verdiyi müsahibəsi zamanı qeyd etdiyi kimi iki ölkə arasında tərəfdaşlıq uğurla həyata keçirilir. Eləcə də, biz Avropa İttifaqı-Azərbaycan tərəfdaşlığı çərçivəsində fəal əməkdaşlıq edirik. Avropa ittifaqı ilə Azərbaycanın yaxınlaşması da İtalya dövləti üçün olduqca vacib haldır, bu səbəbdən hər zaman Azərbaycanın Avropa İttifaqı ilə yaxınlaşmasını güclü şəkildə dəstəkləyib. İstər 44 günlük İkinci Qarabağ müharibəsi zamanı, istərsə də sonrası İtaliya mətbuatı daim Azərbaycanı dəstəkləyib. "İl Sole 24 Ore" və "Gli Occhi della Guerra" qəzeti Azərbaycanın sülhsevər mövqeyini daim dəstəkləyib və dövlətimizin bu sahədə olan fəaliyyətinə dair materiallar işıqlandırıb.

Bu gün Bakıda müstəqillik dövrünün ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilir. Bu stansiya İtalyanın "Made in Italy" "Ansaldo Energia" şirkətlərinin iştirakı ilə tikiləcək. Azərbaycanla İtalya enerji sahəsində növbəti bir uğura imza atır. Həmçinin, bu lahiyə beynəlxalq xarakter daşıyacaq. Çünki burada Çinin bir şirkəti də iştirak edəcək".

*Ayşən Vəli*

# Təhsil tariximizdə İrəvan Müəllimlər Seminariyasının rolu

Qərbi Azərbaycan İcmasının üzvü, Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Cəlal Allahverdiyevin SİA-ya müsahibəsini təqdim edirik:



***- İrəvanda ilk qəza məktəblərinin təşkili prosesindən məlumat verə bilərsiniz?***

- XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi proseslər müxtəlif sahələrdə olduğu kimi, təhsil və məktəb sahəsində də yeni meyillərin yaranmasına səbəb oldu. Artıq məscidlərin nəzdində fəaliyyət göstərən mollaxanalar və mədrəsələr getdikcə tənəzzülə uğrayır, yerini dünyəvi məktəblərə verməyə məcbur olurdu.

Cənubi Qafqaz Rusiya tərəfindən işğal edildikdən sonra həyatın bütün sahələri onun tərəfindən idarə olunmağa başladı. 2 avqust 1829-cu ildə Rusiya Maarif Nazirliyi "Zaqafqaziya məktəblərinin vəziyyəti haqqında" qərar qəbul etdi. Cənubi Qafqazda öz ideoloji və siyasi maraqlarını təmin etmək üçün qəbul edilmiş həmin qərarda qəza məktəblərinin yaranması və ümumi təhsil sistemi ilə idarə edilməsi öz əksini tapmışdı. Qərarda 1830-cu ildə başqa şəhərlərlə yanaşı, İrəvanda da 100 şagirdlik qəza məktəbinin açılması nəzərdə tutulsa da, həmin il bunun həyata keçirilməsi mümkün olmamışdır. Araşdırmalardan məlum olur ki, İrəvanda ilk qəza məktəbinin 1831-ci ilin mart-oktyabr aylarında açılmasına yenə də ciddi səy göstərilmiş, hansısa səbəblərdən gerçəkləşdirilməmişdir. Belə ki, müəyyən səylərdən sonra İrəvanda ilk qəza məktəbi 14 yanvar 1832-ci ildə açılmışdır.

XIX əsrin 70-ci illərindən başlayaraq Çar Rusiyası tərəfindən Cənubi Qafqazda qəza məktəblərinin təşkili prosesinin sürətləndirilməsi və onların sayının getdikcə artması həmin təhsil müəssisələrində müəllim kadrlarına olan tələbatın aradan qaldırılması üçün çar hakimiyyəti Cənubi Qafqazda pedaqoji kadrlar hazırlayan müəllim seminariyalarını təşkil etməyə başladı. Rusiya Dövlət Şurasının 20 oktyabr 1880-ci il tarixli qərarına əsasən yaradılan bu tip təhsil müəssisələrindən biri də 2021-ci ildə 140 ili tamam olan, təhsil tariximizdə əhəmiyyətli dərəcədə böyük rol oynamış, şərəfli bir yol keçmiş İrəvan Müəllimlər Seminariyasıdır.

***- Bəs, İrəvan Müəllimlər Seminariyasının açılması üçün hansı tədbirlər həyata keçirildi?***

- 1891-ci ildə Tiflisdə nəşr edilən "Qafqaz təhsil dairəsinin sərəncamları" adlı məlumat kitabında Qafqaz dairəsinin 17 iyul 1881-ci ildə verdiyi 3651 nömrəli sənəd vardır ki, həmin sənəd İrəvan şəhərində müəllimlər seminariyasının açılması barədə Cənubi Qafqazın Baş Maarif İdarəsinə göndərdiyi izahatdır. Həmin izahatda qeyd edilir ki, Rusiya Dövlət Şurasının 20 oktyabr 1880-ci il tarixli sərəncamını nəzərə alaraq, 1881-ci ilin ikinci yarısı üçün İrəvan Müəllimlər Seminariyasına 14.175 min rubl vəsait ayrılmışdır. 1882-ci il üçün bütöv ştat məsrəfi olaraq 28.350 rubl vəsait nəzərdə tutulmuşdur.

Rusiya Dövlət Şurasının qərarından 1 il sonra 8 noyabr 1881-ci ildə İrəvanda ilk müəllim kadrları hazırlayan təhsil müəssisəsi - İrəvan Müəllimlər Seminariyası açıldı. Görünür, seminariyanın açılmasını ləngidən əsas səbəblərdən biri tədris binasının olmaması idisə, digər səbəb isə müəllim və tələbələrin təhsil ocağına cəlb edilməsi problemi ilə bağlı idi.

Seminariya fəaliyyətə başladığı ilk vaxtlarda bir sıra çətinliklərlə üz-üzə qalmışdı. İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladığı ilk dövrdə tədris prosesi üçün lazımi səviyyədə əlverişli şəraiti olmayan, illik icarə haqqı 5 min rubl olan birmərtəbəli binada yerləşmişdi. Binanın qapısının üzərindən kiçik bir lövhə asılmışdı ki, həmin lövhənin üzərində də əski ərəb əlifbası ilə bu sözlər yazılmışdı: "Əcəb səadətə çatdıq görüb əsl səidi, bu zülmət içrə göründü gözə "Ziyayi-Rəşidi". İrəvan Müəllimlər Seminariyası 1905-ci ildə İrəvanın Daşlı küçəsində inşa edilmiş ikimərtəbəli binaya köçmüşdü.

***- Seminariyanın fəaliyyətini necə dəyərləndirmək olar? Kimlər fəaliyyət göstərirdi?***

- Seminariyanın ilk fəaliyyət dövrünə nəzər saldıqda, məlum olur ki, cəmi 11 nəfər heyətlə - onlardan 9-u müəllim, 42-si isə şagird olmaqla fəaliyyətə başlamışdır. İrəvan Müəllimlər Seminariyasının ilk direktoru Yakob Stepanoviç Suşevski təyin edilmişdir. Qriqori Qəmbərov ilahiyyət (pravoslav), Axund Məhəmmədbağır Qasızadə ilahiyyat (islam) və Azərbaycan dilini, Andrey Anastasoviç Karamosko və İvan Avetisoviç Tamamşev rus dilini, Adolf Osipoviç Rayteman gimnastika, Karl Bazileviç və Emiley Karl Bayor musiqi fənnini tədris etmişdir. Seminariyada digər iki müəllim də fəaliyyət göstərmişdir. Mixail Aloizov Porçinski isə həkim kimi çalışmışdır. Karl Bazileviç musiqi fənnini tədris etməklə yanaşı, eyni zamanda, seminariyada kargüzar vəzifəsində də çalışmışdır.

Müxtəlif vaxtlarda Yakob Stepanoviç Suşevski, Aleksey Miropiyev, İvan Andreyeviç Pasyuteviç, Aleksey Martinov Zazuboviç, Sergey Nikolayeviç Streleçki, Valentin Vasilyeviç Dobrotin İrəvan Müəllimlər Seminariyasının direkoru olmuşlar. Adlarını qeyd etdiyimiz bu şəxslərin bəziləri müxtəlif vaxtlarda həm Zaqafqaziya Müəllimlər Seminariyasının, həm də İrəvan Müəllimlər Seminariyasının direktoru olmuşdular.

İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladığı ilk gündən Azərbaycan şöbəsinin müdiri dövrünün görkəmli alim və pedaqoqu Axund Məhəmmədbağır Qazızadə olmuşdur. Seminariyada Azərbaycan məktəbləri üçün müəllim kadrların hazırlanmasında onun böyük xidmətləri olmuşdur. Universal intellektə malik olan Axund Məhəmmədbağır Qasızadə təkcə çalışdığı seminariyada, yaşadığı İrəvanda deyil, Yaxın Şərqdə böyük nüfuza malik idi. O bütün ömrünü, bilik və bacarığını İrəvanda azərbaycanlı müəllim kadrların hazırlanmasına, anadilli məktəblərin yaradılmasına, milli oyanışa sərf etmişdir. Onun seminariyada Azərbaycan dili və şəriət dərslərinin yüksək səviyyədə keçirilməsi, tədris şəraitinin yaxşılaşdırılması, azərbaycanlı gənclərin seminariyaya və başqa yeni tipli məktəblərə, təhsilə, elmə cəlb edilməsində misilsiz xidmətləri olmuşdur. O seminariyada fəaliyyətə başladığı gündən - 1881-ci ildən Azərbaycan dilini, ilahiyyət fənnini, 1888-ci ildən 1911-ci ilin sonlarına qədər isə ilahiyyat fənnini tədris etmişdir.

1897-ci ilin sonlarından başlayaraq 1902-ci ilə qədər seminariyada Rəhim Musarza oğlu Xəlilov, 1902-ci ildən 1907-ci ilin oktyabr ayının 23-dək Həmid bəy Şahtaxtinski, 1907-ci ildən 1918-ci ilədək isə Mirzə Cabbar Məmmədzadə Azərbaycan dili fənnini tədris etmişdilər. Seminariyanın hazırlıq sinfində bir müddət Məhəmməd Axundov ilahiyyət fənnindən dərs demişdir. 1908-1909-cu illərdə Seminariyada bədən tərbiyəsi dərslərini Cümhuriyyət dövründə general rütbəsinə kimi yüksəlmiş görkəmli hərbi xadim Həbib bəy Səlimov tədris etmişdir. Onu da qeyd edək ki, adlarını qeyd etdiyimiz müəllimlər həm də İrəvan Müəllimlər Seminariyasının məzunları olmuşdu.

***- Müəllimlər Seminariyası azərbaycanlı məzunlar yetişdirirdimi?***

- İrəvan Müəllimlər Seminariyasının ilk buraxılışı 1884-cü ildə olmuşdur. Həmin il seminariyanı bitirən məzunlardan 5-i azərbaycanlı idi. Ümumiyyətlə, seminariya fəaliyyət göstərdiyi 37 il ərzində 70-dən artıq azərbaycanlı müəllim kadrları hazırlamışdı. Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, maarifinin, ictimai-siyasi mühitinin bir çox görkəmli nümayəndələri Mirzə Cabbar Məmmədzadə, Həbib bəy Səlimov, Həmid bəy Şahtaxtinski, İbadullah bəy Muğanlinski, Tağı bəy Səfiyev, Fəraməz bəy Mahmudbəyov, Saleh bəy Güllüçinski, Cəlil Mirzəyev, Haşım bəy Vəzirov, Rəşid bəy İsmayılov, Həsən Səfərli, Məmməd bəy Qazıyev, Vahid Musabəyov, Fərrux Ağakişibəyov, Əhməd Haşımov, Cəfər bəy Cəfərbəyov, Əli İbrahimov, Şəmdi bəy Mahmudbəyov, Heydər Vəzirov, Əhməd bəy Qaziyev, İbrahim Səfiyev, Həsən Nəsirbəyov, Sadıq Xəlilov və bir çox başqaları həmin seminariyada təhsil almışdılar. 1918-ci ilə qədər və eləcə də azərbaycanlılar yaşayan müxtəlif şəhərlərdə, kəndlərdə fəaliyyət göstərən ibtidai məktəblərin əksəriyyəti İrəvan Müəllimlər Seminariyasının məzunları tərəfindən təsis edilmişdi. Ümumiyyətlə, milli maarifimizin inkişafında həmin müəllimlərin misilsiz xidmətləri olmuşdur.

***- İrəvan Müəllimlər Seminariyası öz fəaliyyətini nə zaman dayandırmışdır?***

- 1915-ci il yanvar ayının əvvəlində Çar Maarif Nazirliyinin əmri ilə müvəqqəti olaraq Şimali Qafqazın Armavir şəhərinə köçür. Seminariyanın nəzdində fəaliyyət göstərən ibtidai məktəb isə fəaliyyyətini əvvəlki kimi İrəvanda davam etdirirdi. Seminariya Armavir şəhərinə köçdükdən sonra Axund Əbülhəsən Qazızadə və Mirzə Cabbar Məmmədzadə də pedaqoji fəaliyyətini orada davam etdirməli olurlar. 1916-cı ilin may ayında seminariya yenidən İrəvan şəhərinə köçmüşdür. Təhsil tariximizin şərəfli bir səhifəsini təşkil edən İrəvan Müəllimlər Seminariyası 1918-ci ildə fəaliyyətini dayandırmışdır.

29 noyabr 1920-ci ildə Ermənistanda sovet hakimiyyəti quruldu. Başqa respublikalarda olduğu kimi burada da məktəb və maarif probleminə münasibət dəyişir, məktəblərin dövlət ixtiyarına keçməsi köhnə tipli məktəblərin ləğv edilməsi, yeni tipli sovet məktəblərinin təşkil edilməsi haqqında qərar qəbul edildi. Beləliklə, azərbaycanlı məktəblərinin də yeni məzmunda təşkili istiqamətində ilk addımlar atıldı. Milli dilimizdə təhsil ocaqları şəbəkəsinin genişlənməsi və idarə edilməsi, orada təhsil alan şagirdlərin sayının sürətlə artması müəllim kadrlarına olan tələbatı daha da artırırdı.

***- Bəs, bu tələbatı ödəmək üçün hansı addımlar atıldı?***

- Müəllim çatışmazlığı probleminin aradan qaldırılması işini qaydaya salmaq üçün EK(b)P MK-nın nəzdində fəaliyyət göstərən "Azsaylı xalqlar şöbəsi"nin müdiri Bala Əfəndiyevin, Ermənistan Xalq Maarif Komissarlığı fəaliyyət göstərən "Azlıqda qalan millətlər" bürosunun müdiri Mehdi Kazımovun, "Zəngi" qəzetinin redaktoru Mustafa Hüseynovun və başqa qeyrətli azərbaycanlı ziyalıların erməni şovinist dairələri qarşısında təkidli tələbi, siyasi və milli iradəsi sayəsində 15 oktyabr 1924-cü ildə İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Məktəbi yaradıldı. Bu məktəb Cənubi Qafqazda universitet səviyyəsində bir təhsil ocağı idi. Azərbaycanın bir çox görkəmli ziyalıları -Cəlil Məmmədquluzadə, Əli Nazim, Mir Cəlal, Yusif Vəzir Çəmənzəminli, Sabit Rəhman, Mikayıl Müşfiq, Məmməd Səid Ordubadi, Mehdi Hüseyn, Səməd Vurğun, Əbdülhəsən, Mikayıl Rəfili, Vəli Xuluflu, Üzeyir Hacıbəyov, Nigar Rəfibəyli, Mirvari Dilbazi, Süleyman Rüstəm və başqaları bu təhsil ocağının qonağı olmuşdular.

İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Məktəbinin nəinki Cənubi Qafqazda, keçmiş ittifaq miqyasında yüksək nüfuza malik olmasında, müxtəlif vaxtlarda bu təhsil ocağının direktorları olmuş Mehdi Kazımovun, Bəhlul Yusifovun, Mustafa Mustafayevin, Xəlil Səfərovun, Həbib Məmmədzadənin, Əsgər Cəfərovun və fədakar müəllim kollektivinin misilsiz xidmətləri olmuşdur. Akademik Budaq Budaqov, AMEA-nın müxbir üzvü Zərifə Budaqova, professorlar Nəriman Əliyev, Əli Fərəcov, Nəzər Paşayev, Fərhad Fərhadov, Cəfər Cəfərov, Yusif Yusifov və başqa görkəmli elm, ədəbiyyat, mədəniyyət, ictimai-siyasi xadimləri bu təhsil ocağının məzunları olmuşdur.

1948-53-cü illərdə Ermənistanda yaşayan azərbaycanlı əhalinin öz tarixi torpaqlarından deportasiyası zamanı təhsil tariximizin ən şanlı səhifələrini təşkil edən, böyük, şərəfli yol keçmiş bu təhsil ocağı da 1949-cu ilin noyabr ayında müəllim və tələbə kollektivi ilə birlikdə Azərbaycanın Xanlar rayonuna köçürülmüş və 1971-ci ilə qədər orada fəaliyyət göstərmişdir.

***Ləman Əlizadə***



# Zəlzələnin yaratdığı fəsadlar:
## psixoloji məqamlar və yoluxucu xəstəliklər



Dünya yaranandan bəşər övladı yerdə baş verən dinamik proseslər nəticəsində yaranan zəlzələlərdən əziyyət çəkmiş, milyonlarla insanın ölümünə səbəb olmuşdur. Güclü yeraltı təkanlar evləri və tikililəri uçurmuşdur. Dünya ölkələri ilə yanaşı, Azərbaycan da bu dəhşətli faciələrlə üz-üzə qalmış, on minlərlə insan zəlzələrinin qurbanı olmuşdur. Bir neçə saniyə içərisində insanın həyatının itməsinə, təhlükə altında olmasına zəlzələlər amansızlıqla hakim olmuşdur. Zəlzələnin intensivliyinə diqqət yetirsək görərik ki, əksər ölkələrdə 12 bala bölünmüş seysmik cədvəllə - Rixter şkalası ilə ölçülür. Bu cədvələ görə 1 bal-hiss olunmayan, 2 bal-çox zəif, 3 bal-zəif, 4 bal-orta, 5 bal-nisbətən güclü, 7 bal çox güclü, 8 bal-dağıdıcı, 9 bal-viranedici, 10 bal-məhvedici, 11 bal fəlakətli, 12 bal isə ən fəlakətli zəlzələ sayılır.

### 28 BÖYÜK ZƏLZƏLƏ SİYAHISINDA ŞAMAXI ZƏLZƏLƏSİ

Azərbaycan ərazisində baş vermiş ən dağıdıcı zəlzələ 1667-ci ildə Şamaxıda baş vermiş 6.9 bal gücündə olub. 80 min insanın həlak olduğu bu zəlzələ Azərbaycan tarixində ən dəhşətli zəlzələ kimi qeyd edilib və ABŞ Geologiya xidmətinin hazırladığı 28 böyük zəlzələ siyahısına daxil olub. 1902-ci ildə baş verən və eyni gücə malik daha bir zəlzələ isə 2 min insanın ölümü ilə nəticələnib. 1139-cu ildə Gəncədə baş verən 6.3 bal gücündə olan zəlzələdə isə 230 min, bəzi məlumatlara görə isə 300 min insan həlak olub. Göy-gölün yaranması da bu zəlzələ ilə əlaqələndirilir.

Bu gün dünyamız qardaş Türkiyədə baş vermiş ən dəhşətli bir zəlzələnin şahidi oldu. Seysmik cəhətdən aktiv ölkə olan Türkiyə tarixində kifayət qədər dağıdıcı zəlzələlər baş vermişdir. 10 sentyabr 1509-cu ildə 7,2 bal gücündə "Böyük İstanbul zəlzələsi", 23 fevral 1653-cü ildə 7,5 bal gücündə "Şərqi İzmir zəlzələsi", 10 iyul 1688-ci ildə İstanbulda 7 bal gücündə "İzmir zəlzələsi", 3 aprel 1881-ci ildə 7,3 bal gücündə Saqqız adasında zəlzələ, 10 sentyabr 1894-cü ildə isə 7 bal gücündə "İstanbul zəlzələsi" olub. Bu və ya digər zəlzələlər insan tələfatına, güclü dağıntılara səbəb olmuşdur.

### TƏBİİ FƏLAKƏT BÖLGƏLƏRİNƏ YARDIMLAR VƏ MADDİ-MƏNƏVİ DƏSTƏK

Bu günlərdə fevralın 6-da Türkiyə Respublikasının Kahramanmaraş vilayəti və ətraf vilayətlərdə baş vermiş dağıdıcı zəlzələ nəticəsində 30 mindən artıq insan həyatını itirmiş, on minlərlə insan yaralanmışdır. Dağıntılar altında qalan insanların sayı hələ bəlli deyil.

Belə bir çətin şəraitdə Azərbaycan qardaş Türkiyənin yanındadır. Azərbaycan Prezidenti və xalqımız qardaş ölkədə baş verən təbii fəlakət bölgələrinə yardımlar edərək, maddi-mənəvi dəstək göstərirlər. Prezident İlham Əliyevin məsələyə son dərəcə həssas münasibəti, maddi vəziyyətindən asılı olmayaraq, hər bir azərbaycanlının qardaş Türkiyəyə yardım göstərməsi bu birliyin, həmrəyliyin nümunəsidir. Türkiyənin zəlzələ bölgəsi üçün beynəlxalq yardım çağırışından sonra axtarış-xilasetmə qrupları göndərən ilk ölkənin Azərbaycan olması, məhz bunun bir daha təzahürüdür. Türkiyədə meydana gələn şiddətli zəlzələnin nəticələrinin aradan qaldırılmasına dəstək məqsədi ilə Azərbaycan Fövqəladə Hallar Nazirliyi hər cür tibbi avadanlıq və ləvazimat ilə təchiz olunmuş ikinci səhra xəstəxanasını Türkiyəyə göndərib.

### SAĞ QALANLARI XİLAS ETMƏK ÜÇÜN BÖYÜK SƏYLƏR

Zəlzələnin baş verməsindən bir neçə gün ötməsinə baxmayaraq, hələ də sağqalma ehtimalı ilə axtarış davam edir. Xilasetmə qrupları həyat ehtimalı gördükləri yerlərdə, beton qalıqlarının altında sağ qalanları xilas etmək üçün böyük səy ilə işləyirlər. Mütəxəssislərin qənaətinə görə, iqlim, hava şəraiti və dağıntılar altındakı şəxsin fiziki və psixoloji vəziyyəti kimi ünsürlər qurbanların nə qədər müddət həyatda qala biləcəklərinə öz təsirin göstərir. Susuzluq, qanitirmə kimi hallar sağqalma ehtimalını sıfıra endirir. Dünya Səhiyyə Təşkilatına görə, uzunmüddətli sıxılma sindromu dağıntının yaratdığı təzyiq səbəbi ilə əzələlər zədələnəndə və toksin istehsal edəndə yaşanır. Dağıntı insanın üzərindən qaldırıldıqda isə toksinlər vücuda yayılır və ciddi nəticələrə səbəb olur. Əlbəttə ki, zəlzələdən dağıntılar altında qala insanların sağ qalmasında iqlim də mühüm rol oynayır.

Əlbəttə ki, zəlzələ psixoloji amillər də yaradır. Həyat ilə mücadilə aparmaq, öz yaxınlarının təhlükəli vəziyyətdə olmasını düşünmək, yaxud da görmək insanda gərgin anları yaradır. Təbii ki, qorxu hissi hər hansı fəlakət və faciə zamanı yarana biləcək bir hissdir. Belə bir vəziyyətdə insan psixoloji baxımdan güclü və dözümlü olmalıdır. Dünya təcrübəsindən məlumdur ki, zəlzələdən sonra dağıntılar altından 10 gündən artıq müddətdə sağ qalaraq çıxarılan insanlar olub. Onlardan biri, yağış suyunu içib, bir karton qutunu yeyərək həyatda qalmışdı. Ağlını işlək tutmaq üçün isə bir oyuncaqla oynamışdı.

### TƏBİİ FƏLAKƏTİN YARATDIĞI ACINACAQLI VƏZİYYƏTDƏN HEÇ KƏS SIĞORTALANMAYIB

Zəlzələdən sonra fəlakət bölgələrində epidemiyalar müşahidə oluna bilər. İçməli suyun təmizliyindən tutmuş yaralarda yarana biləcək infeksiyalara qədər bir çox xəstəliyə qarşı diqqətli olmaq vacibdir. İnsan cəsədləri infeksiya, zəhərli su və s. epitemolji vəziyyəti gərginləşdirə bilər. Zəlzələdən 10 gün sonra dağılmış ərazilərdə qalmaq əlbəttə ki, təhlükə yarada bilər. Buna görə də mütəxəssislər sağ qalan insanları, uşaqları, heyvanları həmin ərazilərdən mümkün qədər tez evakuasiya etməyi məsləhət görürlər. Xilasedicilərin də ciddi mühafizə vasitələri ilə təmin olunmasına, əleyhqazlar taxmalarına ehtiyac yaranır. Mütəxəssislərin qənaətinə görə, dağıntılar altında qalan insan və heyvan cəsədlərinin təbii çürüməsi nəticəsində ətrafa kəskin qoxu və zəhərli maddələr xaric olur. Bu maddələr havaya, kanalizasiyaya, açıq su höfzələrinə keçir və nəticədə bir sıra infeksion xəstəliklərin yayılmasına səbəb olur. O da bildirilir ki, zəlzələdən sağ çıxanlarda sonradan toxumaların əzilməsi nəticəsində toksikoz, təzyiq, ürək problemləri, depressiya, intihara meyillilik, bağırsaq xəstəlikləri və s. başlayır.

Zəlzələ dağıntı və ölümə səbəb olmaqla yanaşı, sonradan yoluxucu xəstəliklərin yayılmasına da səbəb olur. Təbii fəlakətin yaratdığı acınacaqlı vəziyyətdən heç bir ölkə, şəhər və qəsəbə sığortalanmayıb. İstənilən dövlət bu faciənin qurbanı ola bilər və odur ki, insanlıq naminə bütün qüvvələr bu və ya digər çətinliklərin aradan qaldırılmasında səfərbər olunmalıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

---



Mətanət MƏMMƏDOVA

# Yazıq hərflər, nöqtələr, vergüllər...

Bizə həmişə elə gəlir ki, yazıq yalnız canlılar ola bilər. Məsələn, bədbəxt bir hadisənin qurbanı olan adama ürəyimiz yanıb, yazıq demişik. Bir xəstəlikdən əziyyət çəkən insan üçün ürəyimiz sızlayıb, yazıq, demişik. Valideynini itirmiş bir körpə üçün, yazıq, demişik. Çünki bu, insanpərvərlikdən gəlir. Axı biz insanıq. Bir-birimizə yanmasaq, bəs halımıza kim yanacaq?

Yazıq sözünü bir də təəssüf edərkən söyləyirik. Məsələn, birinin ağlı qaçanda, ağlına gələni danışanda, deyirik ki, yazıq, niyə bu günə düşüb? Bu mənada yazıq sözünü əsasən bəzi müxalifət partiyalarının bəzi üzvləri haqqında da işlədirik ki, yazıq, nə danışdığını, nə hərəkət etdiyini bilmir.

Biz bəzən elə ürəyiyanar oluruq ki, heyvanlara da yazığımız gəlir. Yazıqdırlar deyib, onlar üçün yem alırıq, müəyyən yerlərə su qoyuruq. Məsələn, bir pişiyin küçədə axsadığını görəndə "yazıqdır",- deyib ona yardım etməyə çalışırıq. Bir qanadı qırılmış quşun yerdə əziyyət çəkdiyini görəndə yenə də "yazıqdır",- deyib yardım etməyə çalışırıq ki, ölməsin, həyata qayıtsın. Bir evdə quşu qəfəsdə görəndə deyirik ki, nə insafsızdır bunlar, yazıq deyil, quşu niyə qəfəsə salırsınız ki?.. Balıqları akvariumda görəndə də eyni hissləri yaşayırıq ki, yazıqlar burada oksigensiz qalıb öləcəklər.

Bəli, ətrafımızda canlı nə varsa, onun üçün təhlükə yaranan an "yazıq",- deyib xilasına qaçırıq. Çünki özümüz də canlıyıq və hər bir canlının düşdüyü yazıq vəziyyətinə biz də düşə bilərik.

Lakin tək canlılar yazıqdırmı? Heç bu barədə düşünən olubmu? Vallah, son dövrdə bəzi mətbuat orqanlarında oxuduğumuz yazılar və yaxud bəzi dövlət qurumlarında rastlaşdığımız sənədlər olur ki, bax, əsl yazığın hərf, nöqtə və vergüllərin olduğunu söyləyir.

Nə olar ki, cansız olanda. Cansız olanda adam ona bu qədər məsuliyyətsizliklə, necə gəldi yanaşar? Bir mətn oxuyursan, həm də adi mətn yox, xəbər, məqalə, məktub, deyirsən, İlahi, nə səbəbdən insanlar bu qədər acıqla qarşılaşıb, bu hərfləri yeyib, üzərindən də su içiblər... Hələ nöqtə və vergülləri, digər durğu işarələrini demirik. İndi müasir gəncliyin bəzi nümayəndələri necə ki, əyin-başında, danışığında, davranışında dəblə gedir, dilimizin qrammatikasına da əl gəzdirib, onu dəblə ayaqlaşmağa vadar ediblər. Odur ki, ta durğu işarələri dəbdən düşüb. Onlara ehtiyac duyulmur. Vergüllər ümumiyyətlə, unudulub, nöqtə də ki, yada düşəndən düşənə qoyulur.

Beləliklə də oxuduğumuz xəbər, məqalə və məktublardan əsla baş açmayıb, başlayırıq yenidən oxumağa. Öz gücümüzə bir şey başa düşdük, düşdük, düşmədiksə, yazıqlar olsun, deyib atırıq bir kənara. Yəni deməyim odur ki, tək canlılar yazıq deyil. Onlardan da yazığı var, bunlar da hərf, nöqtə və vergüllərdir.

Düşünürsən ki, bax, bu qrammatikamızın nə günahı var ki, insanlar onu bu günə qoyurlar? Ay qardaşlar, ay bacılar, yaza bilmirsiniz, gedin, bildiyiniz işlə məşğul olun da. Yaza bilmirsiniz, nöqtənin harada, vergülün harada olacağını bilmirsinizsə, nə gəzirsiniz mətbuatda, nə gəzirsiniz dövlət qurumlarında? O qədər özəl işlər var ki, gedin başınızı salın aşağıya, özünüzə bab bir işlə məşğul olun da...Yazıq deyil bu hərflər, nöqtə və vergüllər? Nədir onların günahı?

Hə, indi bəlkə onu da arzulayanlar var ki, nə olardı, Allah, elə bir qurğu olardı, bu hərfləri, nöqtə və vergülləri "kışlayıb" öz yerlərinə qovalayardı. Belə görürəm ki, onu da tapıb ortaya çıxaracaqlar. Necə ki, yerində olmayanlar var...

SİYASİ RAKURS

# Vardanyan qaçıb - Araik də aradan çıxmağa yol axtarır

## "Konstitusiya düzəlişləri" oyunbazlığı arxasında dayanan məqamlar nədir?

**Bir neçə gündür ki, Qarabağda - Rusiya sülhməramlıları kontingentinin müvəqqəti məsul olduqları ərazilərdə qalan cinayətkar-separatçı tör-töküntüləri, daha dəqiq desək, qondarma "prezident" Araik Arutyunyan saxta "konstitusiyaya" hansısa "düzəliş" etməyi planlaşdırır və bu ətrafda müzakirələr aparır. Sözügedən "düzəlişə" görə, əgər cinayətkar-separatçı rejimin qondarma "prezidenti" hərbi vəziyyətdə hansısa səbəbdən "səlahiyyətlərini" yerə qoyarsa, bu zaman onun yerinə olacaq hər hansı şəxsi saxta "parlament" seçə bilər. Bu, öz yerində, amma...**



### Araik üçün ən optimal çıxış yolu qeyri-müəyyən zamana qədər "hərbi vəziyyəti" uzatmaqdır

Amma daha bir məsələ də var. Daha doğrusu, cinayətkar-separatçı rejimdəki hərəkətlilik əlavə nələrdən xəbər verir? Belə ki, mövcud situasiyada, yəni "hərbi vəziyyətdə" qarabağlı separatçılar heç bir "seçki" keçirmirlər. Lakın "hərbi vəziyyət" başa çatandan sonra "növbədənkənar seçkilər" keçirilir. Beləliklə, Araik üçün ən optimal çıxış yolu qeyri-müəyyən zamana qədər "hərbi vəziyyəti" uzatmaqdır. Lakin sual da onda yaranır ki, onun "düzəlişlər" etmək marağının arxasında nə dayanır?

İlkin məqam budur ki, Araik çox yaxınlarda Ruben Vardanyan kimi aradan çıxmağa çalışır. Gəlin bu məsələyə digər tərəfdən nəzər salaq. Hazırda o, ağır və çıxılmaz vəziyyətdədir. Belə ki, əgər o heç bir bəhanə gətirmədən istefaya getsə, separatçılar ona dərhal xain damğasını vuracaqlar. "Hərbi vəziyyəti" də aradan qaldırmaq mümkün deyil. Onda belə çıxır ki, Araikə Qarabağdan sivişib-çıxmaq olduqca vacibdir. Əks halda, o "düzəliş" məsələsini ortaya atmazdı.

### Bakının Vardanyanın Qarabağa geri dönmək cəhdinə qarşı artıq dəqiq və qəti casus-belli bəyanatı da öz qüvvəsindədir

Digər yandan, Vardanyanın Qarabağdan qaçması və artıq Xankəndidə olmaması, əslində, Arutyunyanın əlinə oynayan kartdır. Eyni zamanda, daha bir sual yaranır ki, bəs o niyə qaçmaq arzusundadır? Burada da bir neçə variant var. Amma həmin variantlardan birini gətirək. Məsələn bir neçə gün əvvəl İrəvanın Tehranla Azərbaycan sərhədlərində təxribat törətmək planlarının olması haqqında yayılan məlumatdan, eləcə də Aİ missiyasının da erməni sərhədləri yaxınlığında müşahidə aparmaları informasiyasından sonra Kreml qarşısında arzuolunmaz mənzərə yaranır və bu mənzərə ona sərf etmir. O cümlədən, Bakı faktoru və onun müəyyən etdiyi qırmızı xətt amili də daim diqqətdə saxlanılmalıdır. Azərbaycan əsgərinin barmağı tətikdədir!

Üstəlik, Bakının Vardanyanın Qarabağa geri dönmək cəhdinə qarşı artıq dəqiq və qəti casus-belli (müharibə şəraitinin yaranmasına səbəb) bəyanatı da öz qüvvəsindədir. Arutyunyan da bunları çox gözəl bilir və hadisələrin ortasında qalmaması və əlində olan "imtiyazlarından" maksimum istifadə etməsi üçün indi də "düzəlişlər" oyununu ortaya atır.

*Rövşən RƏSULOV*

# Maşallah bu kişilərə







***Gözümüzü açıb özümüzü dərk edəndən gördük ki, ata-babalarımız əllərində bel, dırmıq, şana, kərənti sübhün qaranlığından evdən çıxıb gedir, bir də günəş qüruba enəndən xeyli sonra gəlirlər. Yorğun-arğın babalarımızın, atalarımızın, əmilərimizin, dayılarımızın əllərindəki qabarı da görürdük və buna ürəyimiz də sızlayırdı.***

Hə, bu kişilər işdən gəlirdilər, bir tikə çörəkdən-çaydan yeyib-içib yatır, yenə də sübhdən qalxıb işlərinin ardınca gedirdilər. Halal zəhmətlə övlad böyüdür, eş-eşik tikir, həyət-baca salır, maşın alır, toy edir, uşaq oxudur, hələ bir ailə büdcəsinə pul da qoyurdular.

Günəşin istisi onların rəngini mis rənginə çevirirdi. Torpağa tər axıdırdılar. Torpaq da əvəzində onlara zər verirdi. İlin bütün fəsillərində bu kişilərin anbarları min bir nemətlə dolu olurdu. Çünki zəhmət adamı idilər. Torpağın altını üstünə çevirirdilər. Torpaq da nə deyir? Deyir ki, əz məni, əzizləyim səni.

Hə, bax belə kişilər vardı. Evdə-eşikdə tapılmırdılar ki... Bir gün su növbəsində, bir gün heyvan növbəsində, bir gün həyətdəki kərdi-külədə, bir gün sahədə, bir gün ot biçinində, bir gün ot daşımaqda... Bir gün bazara yem dalınca gedirdilər, bir gün məhsullarını satmaq üçün yollanırdılar. Bax belə kişilər vardı.

İndi bəzi kişiləri görəndə, necə deyərlər, adamın əti tökülür. "Yəni, bunlar adlarını kişi qoyublar",- deyə fikir edirsən. İki gündən bir baxırsan ki, xəbərlərdə şəkilləri yan-yana düşülüb.. Elə bu şəkillərdən anlayırsan ki, hə, bunlar yenə nə isə ediblər, təzə xəbər var. Oxuyub görürsən ki, elə düşündüyün kimidir. Bunlar ya oğurluq etməklə məşğuldurlar, ya da insanların həyatını məhv edən narkotik vasitələrin satışı, təbliği ilə. Deyirsən, maşallah bu kişilərə. Əhsən.

Budur, fevral ayı ərzində 13 nəfər bir, 6 nəfər bir adlarını kişi qoyanlar narkotik vasitələr satarkən yaxalanıblar. Vallah, dəsmal götürüb ağlamaq istəyir adam. Əslində elə ağlamalıyıq da. Nəyə görə? Birincisi, baxın, bizim cəmiyyətimizin bu "maşallahlıq" kişilərinə baxın. İkincisi, deyirsən ki, İlahi, hanı o kişilər ki, bunları qapılarında nökər də saxlamazdılar. Üçüncüsü, ona görə ki, gör bu başdan xarablar bizim balalarımızın gələcəyini necə məhv etməkdədirlər.

Deyirəm, ölüm çox halda o qədər gözəl bir nemətdir ki. O qədər gözəl nemətdir ki, Allah-təala onu da hər kəsə nəsib etmir. Məsələn bax bu 19 nəfərə. Bizim igid, qəhrəman, gül kimi balalarımız gedib Qarabağda torpaq, Vətən uğrunda şəhid oldular, namusumuzu xilas etdilər. Bunlar da narkotik alveri ilə məşğuldurlar. Yəni bunlar bir təşəbbüslə çıxış edib deyə bilməzdi ki, biz də gedək Qarabağın quruculuq işlərində iştirak edək?

Niyə gedib orada əziyyət çəksinlər ki? Burada özləri kimi yüngül iş tapıblar da. Hələ bir durub bu soyuqda Qarabağa gedəcəkdilər? Yüngülcə bağlamadır, oradan-bura, buradan-ora aparıb verib xeyli pulu qatlayıb qoyurlar ciblərinə, sonra da küçədə sinələrini qabağa verib kişi-kişi yeriyirlər. Başlarını da elə uca tuturlar ki, deyirsən bəs, dağları bunlar yaradıb.

Bunların böyük əziyyətlə daşıdıqları bağlamalardan nə çıxır? Birinci 13 nəfərdən ümumilikdə 2 kiloqrama yaxın heroin, tiryək, metamfetamin və satışı qadağan olunan psixotrop tərkibli həblər aşkar edilib. Onlar utanmazcasına narkotik vasitələri şəxsi istifadələri ilə yanaşı, paytaxt ərazisində satmaq məqsədilə əldə etdiklərini də bildiriblər. Hələ üstəlik onlardan bəzilərinin gənclər və yeniyetmələr arasında narkotik vasitələrin təbliği ilə məşğul olduqları da müəyyən edilib.

O biri 6 nəfərin başlarının ağası ilə birlikdə bağlamasından isə 4 kiloqrama yaxın heroin, metamfetamin və marixuana aşkar edilib. Maşallah bu kişilərə. İndi görün, kimlər ölür, kimlər yaşayır? Cəmiyyətin, ailənin, arvadın, nişanlının, övladın, qonşunun, qohumun üz qarası olanlar, nə olar, özünüzdə yoxdur, görün kimdən bir papaq tapırsınız, qoyun qarşınıza, bir fikirləşin. Fikirləşin ki, nə edirsiniz? Hansı yoldasınız? Hansı yolla pul qazanırsınız? Hansı yolla övlad böyüdürsünüz? Hansı yolla ailə saxlayırsınız? Bəlkə o papaqdan bir səs çıxa, elə bir söz deyə ki, yeddi qatınızdan çıxıb sizləri öldürüb dirildə. Bəlkə bu dəfə əsl kişi kimi yaşaya biləsiniz...

*Mətanət Məmmədova*

FELYETON

# Şərqin ilk "sehirli qutusu"- 67 yaşlı teleməbədimiz

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*

**Televiziyanın kəşfini cəsarətlə keçən minilliyin ən böyük kəşfi adlandırmaq olar. "Sehirli güzgü"nün reallığa çevrilməsi nağılları gerçəkliyə döndərməyin mümkünlüyünü göstərdi. "Uçan xalça" misalında olduğu kimi. İndi televiziya dünyamızın, həyatımızın güzgüsü rolunu oynayır. Şərqdə ilk televiziya Bakıda, 1956-cı ilin fevralın 14-də ilk dəfə efirə çıxıb. "Diqqət, göstərir Bakı" sözləri ilə Azərbaycanın ilk televiziyası yayıma başlayıb. Həmin gün ekranda "Bəxtiyar" bədii filmi nümayiş etdirilib. Həmin tarix xalqımızın siyasi və mədəni həyatına böyük yenilik gətirib.**




Bakı Televiziya Studiyasının fəaliyyəti xalqımızın mədəniyyətinin təbliğinə və inkişafına, insanların elmə, təhsilə marağının artmasına, ölkədə və dünyada baş verənlərdən tez xəbər tutmasına səbəb oldu. Düzdür, bundan qabaq 1926-cı ildə Bakıda Şərqin ilk radiosu- Bakı Radio Stansiyası fəaliyyətə başlamışdı və insanlar səsli şəkildə xəbərləri dinləyə, verilişlərə qulaq asa bilirdilər. Amma balaca bir "sehirli qutuda" dünyanın başqa yerlərinə baxa bilmək o dövrdə həqiqətən möcüzə idi.

Bakı Televiziya Studiyası əvvəlcə həftədə 3 dəfə, 1957-ci ildən isə 5 dəfə 2 saatlıq proqramla efirə çıxıb. 1962-ci ildə gündəlik efirə çıxan proqramların həcmi 7 saatadək artırılıb. 70-ci illərdə gündəlik verilişlərin yayım həcmi 10, 80-ci illərdə 18 saata çatdırılıb. 2005-cı ilin yanvarından AzTV 24 saatlıq fasiləsiz yayıma keçib.

İlk rəhbəri Ənvər Əlibəyli olan Bakı Televiziya Studiyası SSRİ-də ən inkişaf etmiş televiziyalardan sayılırdı. 1985-ci ildə müxtəlif proqramlarla Mərkəzi Televiziyadakı çıxışlarına görə Sovet İttifaqı üzrə 4-cü yeri tuturdu.

1981-ci ildə tikilməsinə başlanan 310 metrlik teleqüllə hazırda dünyada ən hündür qüllələrdən biridir. Hazırda Azərbaycan televiziyasının yaydığı verilişlərə peyk vasitəsilə dünyanın əksər ərazilərində baxmaq mümkündür.

Sovet İttifaqının dağılmasınadək Bakıda yaşayanlar AzTv-dən başqa 2 ümumittifaq kanalına, respublikanın qərb və şimal bölgələrindəki tamaşaçılar isə əlavə olaraq daha bir neçə kanala baxmaq imkanı əldə etmişdilər. Məsələn, mən Tovuz şəhərində ümumilikdə 6 kanala- 2 Moskva, 1 Bakı, 2 Tbilisi və 1 Yerevan kanalına baxa bilirdim.

90-cı illərdə respublikada yeni telekanallar yaranmağa başladı. AzTV-nin 2-ci kanalı fəaliyyətə başladı. İlk özəl televiziya isə ANS idi. Maraqlıdır ki, növbəti özəl telekanallar əyalət şəhərlərində açıldı- Gəncədə ("Kəpəz" TV- 1992-ci il) və Tovuzda ("Tovuz" TV- 1993-cü il). Daha sonra ümumrespublika və regional kanalların sayı artdı.

Hazırda 10 respublika əhəmiyyətli telekanal, 10-dan çox regional telekanal fəaliyyət göstərir. Lakin yeni telekanallar ana televiziyamızın ənənələrini davam etdirmədilər. Yeni dövrün- bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq biznes maraqları hər şeydən üstün tutuldu, bütün qəbuledilməz, cəmiyyətə yararsız nəsnələri efirə gətirildi. Milli-mənəvi dəyərlərin, elm və mədəniyyətin təbliği özəl kanalların çal-çağırı, şou verilişləri, serialları arasında itib batdı.

Tamaşaçının televiziya haqda təsəvvürü darmadağın oldu. Əvvəllər TV-də ancaq elmi-intellektual proqramlara, siyasi, iqtisadi, elmi, ədəbi-bədii, tarixi mövzularda ciddi verilişlərə, yuxarı səviyyəli filmlərə baxan tamaşaçının zövqü küçə səviyyəsində filmlər, ara qeybətləri, toy müğənniləri, savadsız və təcrübəsiz aparıcılar tərəfindən korlandı.

Özəl kanallar kütləni ələ aldı, lakin intellektual auditoriyanı itirdi. AzTv isə zamanla ayaqlaşa bilmir, müasir tipli verilişlər təşkil edə bilmirdi. Maliyyə, peşəkar və savadlı kadrlar, müasir texnologiya çatışmırdı. Belədə digər kanallarla rəqabətdə uduzurdu. Peyk antenlərinin və kabel televiziyasının inkişafı nəticəsində baxmaq imkanı olan kanalların sayı itib getdi. Belə bir güclü rəqabətdə tamaşaçı cəlb etmək həddən artıq çətin idi.

Lakin ədalət naminə qeyd etmək lazımdır ki, bir milli televiziya kimi o, tamaşaçıya yalnız səviyyəli verilişlər, filmlər, mahnılar və s teleistehsallar təqdim edirdi. Tamaşaçı AzTV-dən başqa digər kanallarda ciddi elmi, sənədli filmlərə, siyasi, iqtisadi, mədəni, sosial və s sahələrdə səviyyəli proqramlara baxa bilmirdi və ya çox nadir hallarda baxa bilirdi. Xüsusilə də, mədəniyyət sahəsində vəziyyət pis idi.

Televiziyanın (ümumilikdə KİV-in) 3 əsas vəzifəsi məlumdur- məlumatlandırmaq, maarifləndirmək, əyləndirmək. Bu sonuncu funksiyada təbii ki, səviyyəsiz şoular, küçə mahnıları yox, tamaşaçının mədəni istirahətini təmin etmək nəzərdə tutulur.

2005-ci ildə AzTv-nin bazasında İctimai Tv yaradıldı. Bu televiziyanın bu sahədə böyük xidmətləri oldu. Bu televiziya ilk vaxtlar tamaşaçı kütləsini cəlb edə bilmədi. Lakin son illərdə bu televiziya daha çox peşəkar, səviyyəli verilişlərlə tamaşaçıları öz ətrafına topladı.

Bununla belə cəmiyyətdə mədəniyyətlə bağlı ayrıca kanala ehtiyac yaranmışdı və bu barədə təkliflər səslənirdi. Azərbaycanda 1 əsrdən bəri yığılıb qorunan dəyərli kinoarxivin, teleistehsal fondunun yalnız AzTV-də olması "Mədəniyyət" kanalının onun nəzdində yaranmasını reallaşdırdı. Nəhayət, AzTv-nin 55 yaşının tamam olması günü efirdə yeni telekanal- Mədəniyyət telekanalı göründü.

Bu kanalda şedevr kinolar, tamaşalar, elmi sənədli filmlər, müxtəlif mövzulu televiziya filmləri, ədəbi-bədii, tarixi-mədəni verilişlər- bir sözlə Azərbaycan və dünya mədəniyyətinin şedevrləri, həmçinin müxtəlif mövzulu verilişlər efirə verilir.

Xüsusilə də, ötən əsrin filmləri, tamaşaları, mahnıları kimi çox dəyərli və maraqlı sənət əsərlərinin nümayişi təqdirəlayiqdir. Bunları kommersiya kanallarında görə bilmirik, onlarda hər gün ya qanlı qırğındır- (amerikan döyüş və qorxu filmləri), ya da çal-çağırdır (şou-biznes qaraçılığı).

Bu gün ölkədə televiziya adına məbəd kimi, məktəb kimi işləyən 3 telekanal var- AzTv, Mədəniyyət və İctimai TV. Bunlar yüksək mədəni zövqü olan, ciddi verilişlərə tələbatı olan intellektual qrupun kanallarıdır. Bu səbəbdən aşağı zövq səviyyəsinə malik tamaşaçı kütləsi də bu kanallara çox baxmır. Bilirsinizmi niyə? Çünki zövqlərini başqa kanallar korlayıb, onlara psixoloji abunə olublar, tamaşaçıya pul qazanmaq yolunda vasitə kimi baxan bu şou-biznes kanallarının qarşısından ayrıla bilmirlər.

Bu 3 telekanal mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin güzgüsüdür. Onlara bircə gün baxaq, düşünək, müqayisə edək, sonra seçim asan olacaq. Korlanmış, aşağı səviyyəyə endirilmiş zövqümüz yenidən yüksələcək, televiziya qarşısında mədəni istirahətin nə demək olduğunu anlayacağıq.

Əminəm ki, AZTV və ana televiziyamızın köynəyindən çıxmış digər 2 telekanal bəzi özəl kanalların əxlaqını, tərbiyəsini düşüncəsini pozmağa çalışdığı, mənən itirdiyimiz insanları cəmiyyətə qaytarmağa qadirdir. Azərbaycan Televiziyası ölkəmizin, xalqımızın mədəniyyət məbədidir, vizual xəzinəsidir. Onun arxivlərində sayı-hesabı bilinməyən veriliş, kino, müxtəlif filmlər və s teleistehsallar qorunub saxlanır.

Məlum olduğu kimi, köhnə lentlər və onları oxudan aparatlar zamanın təsiri ilə sıradan çıxır. Onları yeni rəqəmsal arxivə köçürmək və gələcək nəsillər üçün qorumaq lazımdır. Hətta yaxşı olardı ki, bir çoxu internetdə yerləşdirilsin ki, ölkə və dünya tamaşaçıları üçün daha əlçatan olsun.

Mən bilmirəm, həmin arxivin yeni texnologiya ilə yeni disklərə və digər informasiya daşıyıcılarına köçürürüb qorunması nə səviyyədədir, amma internetdə rast gəldiyim köhnə bəzi teleistehsallar deməyə əsas verir ki, hər halda bu iş aparılır. Hərçənd bəzi məlumatlara görə, bu qiymətli arxivin bir hissəsi artıq korlanıb və itirilib.

Ana televiziyamızın üstünlüyü təkcə bunda deyil. Xalqın maarifləndirilməsi, onların bədii-estetik zövqünün yüksək səviyyədə formalaşması, bilik və dünyagörüşünün artırılması, milli və bəzəri dəyərlərin qorunması və təbliğ edilməsini özündə ehtiva edən proqram siyasətindədir.

Son vaxtlar AzTV-də çox ciddi dəyişikliklər baş verib. Xəbərlər sistemində, müəllif proqramlarında, efirin ümumi formatında, hətta dövlət siyasətinin əhaliyə çatdırılması formasında dəyişikliklər və irəliləyişlər göz qabağındadır. İndi AzTV-nin efirində ciddi problemlərin qaldırılması, nöqsanların göstərilməsi, neqativ halların tənqiinə daha çox rast gəlmək olar.

Bu gün Azərbaycanda fəaliyyət göstərən ən peşəkar kadrlar AzTV-də cəmləşib: redaktorlar, ssenaristlər, rejissorlar, montajçılar, operatorlar, rəssamlara burada öz potensiallarını ortaya qoymaq üçün imkanlar var. Azərbaycan Televiziyası yaradıcı şəxslərə öz layihələrini AzTv-nin efrirində realaşdırmağa imkan yaradır. AzTV öz əməkdaşları üçün treninqlərinin keçirilməsini və digər ölkələrin televiziyaları ilə təcrübə mübadiləsinin aparılmasını vacib hesab edir.

Peşəkarların yetişməsi üçün isə Azərbaycan Teleradiosunun imkanları genişdir: studiyalar, çəkiliş pavilyonları, zəngin maddi-texniki baza, ən müasir texniki imkanlara malik avadanlıqla təchiz olunan montaj otaqları. Dövlətimizin başçısının birbaşa diqqəti və qayğısı ilə həyata keçirilən islahatların məqsədi isə Azərbaycan Teleradiosunun nüfuzunu daha da artırmaq, tamaşaçı və dinləyicilərə yüksək səviyyəli proqramlar təqdim etməkdir.

Azərbaycan Televiziyası bügün ölkə teleməkanının mənbəyidir, məbədidir. Bu gün televiziyalarda olan peşəkar kadrların çoxu AzTv-nin süzgəcindən keçiblər və burada yetişiblər.

Həqiqətən də son vaxtlar ana televiziyanın siması tamamilə dəyişib. Efirə verilən proqramlar daha baxımlı, daha cəlbedicidir. AzTv süni peyklər vasitəsilə dünyanın demək olar ki, hər yerində yayımlanır. Hazırki telekanal bolluğunda ana televiziyamız yenə də öz tamaşaçı auditoriyasını saxlayır və getdikcə artırır.

Hər bir televiziyanın siması onun aparıcılarıdır. Bu baxımdan AzTv əvəzolunmazdır. Azərbaycan televiziyasının aparıcıları aydın səs tonu, səlis nitq qabiliyyəti, xoşagəlimli xarici görünüşü, yüksək efir mədəniyyəti ilə fərqlənir. Bu səbəbdən də, o, Azərbaycan teleməkanında öz ana televiziya statusunu layiqincə daşıyır.

67 yaşı münasibəti ilə Azərbaycan Televiziyasının bütün əməkdaşlarını təbrik edirəm. Həmçinin, digər televiziyaların da əməkdaşlarını. Bayramınız mübarək.

**Elçin Bayramlı**









SON SƏHİFƏ

SƏS

15 fevral
2023-cü il

# Qadınlara qeyri-etik təkliflər edən sürücülər tutulub

**Paytaxtda polis əməkdaşları tərəfindən keçirilən tədbirlər nəticəsində müxtəlif taksi şirkətlərinin sürücüləri tərəfindən 9 hüquqpozma faktı aşkar olunub. DİN-in mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, onlardan 1-i dələduzluq cinayəti, 8 fakt isə qadın sərnişinlərə qarşı qeyri-etik təkliflərlə bağlı olub.**




Texniki vasitələrlə aşkarlanan hüquqpozma halları ilə bağlı 8 sürücü inzibati məsuliyyətə, 1 sürücü isə cinayət məsuliyyətinə cəlb edilib. Bu istiqamətdə polis əməkdaşları tərəfindən tədbirlər davam etdirilir, daxil olan bütün müraciətlərə çevik reaksiya verilir.

# Ailədaxili cinayətlər niyə artıb?



**Ekspert açıqladı**

“Son vaxtlar Azərbaycanın ailə dəyərlərinin aşınmaya məruz qalması, eyni zamanda ailədaxili sosial-məişət münasibətlərinin pozulması halları ilə tez-tez rastlaşırıq. Bunun da nəticəsində kriminal hadisələrin sayı dayanmadan artır. Əgər əvvəllər ailəxarici kriminal hadisələrin şahidi olurduqsa, indi artıq ailədaxili cinayətlər, şiddət halları da artıb. Bütün bunlar Azərbaycan ictimaiyyətini, ziyalılarını düşündürür”. Bu sözləri SİA-ya açıqlamasında yazıçı-kulturoloq, sosial-ekspert Aydın Xan Əbilov deyib.

Onun sözlərinə görə, ötən gün paytaxt ərazisində oğulun anasını ağacla döyməsi hadisəsi də böyük ictimai etirazlara səbəb olub: ”Bundan illər öncə yalnız gəlin-qaynana, kürəkən-qayın münaqişələri yaşanırdısa, bugünkü gündə bacı-qardaş, ana-oğul, ər-arvad arasında cinayətə gətirib çıxaran münaqişələr yaşanır. Buna qarşı bir neçə metod var ki, dünyada artıq istifadə olunub”.

Ekspert sözlərinə davam edərək bildirib ki, bunlardan birincisi, klassik ənənələrin dirçəldilməsi yaxud mühafizəkar ailə münasibətlərinin təbliğ edilməsidir: ”Amma bunun da mənfi tərəfləri var, hansı ki qonşu İran dövlətində bunları müşahidə edirik. İkincisi, modern Avropa sivil dəyərlərinin milli dəyərlərlə sintezidir. Bunu biz Türkiyə, İsrail və Şərqi Avropanın bir çox ölkələrində görə bilərik. Həmçinin, təhsilin inkişafı, elmə xüsusi dəyər verilməsi, müxtəlif estetik texnologiyaların məişət həyatında tətbiq edilməsi, kitaba, teatra, kinoya vaxt ayrılması da bu cür halların qarşısını almağa kömək edir. Azərbaycanda da biz bunları təbliğ edə, müxtəlif sivil münasibətlərin genişlənməsinə şərait yarada bilsək, belə hallar tezliklə aradan qaldırıla bilər. Amma istənilən halda, bu konfliktlər valideyn-övlad münasibətlərindəki boşluqlardan da qaynaqlanır. Bu boşluqları hələki biz heçnə ilə doldura bilmirik. Çünki nə Avropa cəmiyyəti Şərq ölkələri kimi islami mental dəyərlərlə yaşamaq istəyir, nə də Qərbi Avropa ölkələrində olduğu kimi sivil, çağdaş dəyərlərə üstünlük verir”.

***Ləman Əlizadə***



## XƏBƏRDARLIQ: İki gün hava küləkli olacaq

Bakıda və Abşeron yarımadasında fevralın 14-ü günün ikinci yarısından 16-sı səhərədək tez-tez cənub küləyinin şimal küləyi ilə əvəz olunacağı, 15-20 m/s, arabir 23 m/s-dək güclənəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya bildirilib ki, Azərbaycanın rayonlarında fevralın 14-ü gündüzdən 16-sı səhərədək əsasən dağlıq və dağətəyi rayonlarda qərb küləyinin arabir 20-25 m/s-dək güclənəcəyi gözlənilir.

# Jurnalistlərin iş stajı hansı dövrdən hesablanır?

**DSMF aydınlıq gətirib**

**Ötən ilin oktyabr ayından media subyektləri, jurnalistlər Media Reyestri İnformasiya Sisteminə reyestr.media.gov.az portalı üzərindən ASAN Login vasitəsilə daxil olaraq, müraciət edirlər. Ancaq media reyestrinə müraciət zamanı bir çox jurnalist iş stajının tam olaraq hesablanmaması problemi ilə qarşılaşıblar.**

Əgər elektron sistemdə staj 3 ildən az görünürsə, iş ilinə baxmaq üçün əmək kitabçasının notarial təsdiqi istənilir. Daha artıq staj görünəndə kitabçanın notarial təsdiqi tələb olunmur. Ancaq əgər elektron sistemdə əvvəlki illərin iş stajı görünmürsə, bu zaman da əmək kitabçasının notarial təsdiqi tələb olunur.



Bütün bu məsələlərlə bağlı jurnalistlərin sosial şəbəkələrdə də müraciətləri yayımlanır. Eyni zamanda, gələcəkdə pensiya yaşı çatan zaman da müəyyən problemlərin ortaya çıxacağı narahatlığını yaradır. SİA xəbər verir ki, məsələ ilə bağlı Dövlət Sosial Müdafiə Fondundan APA-nın sorğusuna cavab olaraq bildirilib ki, jurnalistlərin iş stajı, digər sahələrdə çalışan vətəndaşlarımız kimi, əmək müqaviləsi ilə çalışdıqları dövr hesab olunur: "Bu staj haqqında məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2014-cü ildən işə salınan ”Əmək və Məşğulluq” altsistemində əksini tapır. 2014-cü ildən öncəki iş stajı haqqında məlumatlar isə hər bir media işçisində mövcud olan əmək kitabçasında əksini tapır.

Media reyestri ilə bağlı tələblərdə məhz bu amil əsas götürülür. Nazirlik olaraq Medianın İnkişafı Agentliyi ilə fəal əməkdaşlıq edilir, müvafiq elektron informasiya sistemlərinin Agentliyin informasiya sistemləri və ehtiyatları ilə inteqrasiyası təmin olunub.

Qaldı ki, jurnalistlərin gələcəkdə pensiya hüququ məsələsinə, bu hüquq sığorta stajına uyğun olaraq təmin edilir. Belə ki, 2006-cı ildən ölkəmizdə tətbiq edilən fərdi uçot sistemində sosial sığorta ödəmələrinin həyata keçirildiyi dövrlər (sığorta stajı) və toplanmış pensiya kapitalı əksini tapır. Pensiya kapitalı təkcə əmək müqaviləsi ilə deyil, VÖEN və ya mülki müqavilə ilə çalışan hər kəslə bağlı ödənilən sığorta haqları hesabına formalaşır”.

Məsələ ilə bağlı iqtisadçı-ekspert Xalid Kərimli açıqlamasında qeyd edib ki, artıq uzun müddətdir pensiya sistemi avtomatlaşdırılıb: ”Ödəniş edilibsə, deməli, qeydiyyat var. 2006-cı ildən ölkədə rəsmi qaydada çalışanların fərdi uçot kodu və fərdi pensiya sistemi var. Dövlət Sosial Müdafiə Fondu üçün ödənilmiş vəsaitlər həmin kod üzrə qeydə alınır. Burada işçini qeydiyyata salmadan ödəniş edilməsi qeyri-mümkündür. Ola bilsin ki, işçi ilə sadələşdirilmiş vergi ödəyicisi kimi xidmət müqaviləsi bağlanılıb. Amma bu halda da ödəmələr gedir və onların uçotu kənarda qalmır. Yox, əgər staj qeydə alınıb və sistemdə görünmürsə, bu texniki məsələdir. Bunun üçün jurnalistlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq qurumlarına müraciət etməklə, stajlarını yenidən hesablatdıra bilərlər. Lakin bu da inandırıcı deyil. Çünki dediyim kimi 2006-cı ildən rəsmi qaydada çalışanların qeydiyyatı avtomatik qaydada hesablanır və hər birinin fərdi identifikasiya kodu mövcuddur ki, ödənişlər bura köçürülür”.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**